Günəş Şərqdən doğur!

❒ № 74 (5355), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 28 aprel 2021-ci il (çərşənbə)

## Vətən müharibəsində şəhid olmuş hərbçi dəfn olunub



**Vətən müharibəsində şəhid olmuş hərbçi Ələkbər Əlövsət oğlu Musayev dəfn olunub.**

Müddətdən artıq hərbi xidmət edən hərbi qulluqçu Ə. Musayev doğulduğu Cəlilabad rayonunun Mollalı kəndində torpağa tapşırılıb. (apa)

Tabuta bükülmüş Azərbaycan bayrağı şəhidin atası, Birinci Qarabağ müharibəsinin iştirakçısı Əlövsət Musayevə təhvil verilib. Dəfn fəxri qaravul və yaylım atəşi ilə müşayiət edilib.

### Günün içindən...



## “Böyük qayıdış başlayıb"

Prezident Zəngilan rayonunda müjdəni verdi

**“Ermənistan dövləti bizə qarşı mədəni soyqırımı da törədib”.**

Bunu Prezident İlham Əliyev işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfəri zamanı deyib. Dövlət başçısı vurğulayıb ki, Zəngilan məscidi bərpa ediləcək...

(səh.2)

## Ceyhun Bayramov və Lavrov telefonla danışıb



Tərəflər bölgədə hazırda mövcud olan vəziyyəti müzakirə ediblər

(səh.2)

# Türkiyənin yanındayıq!



## Millət vəkilləri Baydeni tənqid “atəşinə tutdular"

**Dünən Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib.** İclas zamanı gündəliyə daxil olan 8 məsələ ilə yanaşı, cari mövzularla bağlı da müzakirələr aparılıb. Mövcud problemlərlə bərabər deputatlar əsasən, ABŞ Prezidenti Co Baydenin qondarma erməni ”soyqırımı”nı dilə gətirməsi məsələsinə münasibət bildiriblər.

(səh.3)

## Görüntünü kiçik tibb işçisi çəkib

Arif Quliyevin xəstəxanadan videosunu yayan şəxs cəzalandırılıb

(səh.5)



## Məzahir Pənahov yenidən MSK-nın sədri seçildi

(səh.8)

## Yeni siyasi pəncərə açılır

Türkiyə parlamentində Ermənistanın müharibə cinayətlərinin müzakirəsi əhəmiyyətli hadisədir

(səh.5)

## 1307 nəfər yoluxub, 27 nəfər vəfat edib

Daha 2 383 nəfər koronavirusdan sağalıb

(səh.9)

## Kranla icazəsi olanlar işləməlidir

Tikinti sahələrində 6 aydan bir yoxlamalar keçirilməlidir

(səh.12)

## Daha bir şəhidimizin övladı dünyaya gəlib



Körpənin adına 5000 AZN-lik hesab açılacaq

(səh.4)

## Sistem dəyişməlidir

Sabir Rüstəmxanlı: “İcra hakimiyyətləri başqa qurumlarla əvəz edilməlidir”



(səh.7)

# "Böyük qayıdış başlayıb"

## Prezident Zəngilan rayonunda müjdəni verdi





"Ermənistan dövləti bizə qarşı mədəni soyqırımı da törədib". Bunu Prezident İlham Əliyev işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfəri zamanı deyib. Dövlət başçısı vurğulayıb ki, Zəngilan məscidi bərpa ediləcək: "Bu məscid mənfur düşmən tərəfindən dağıdılmışdır. Bütün beynəlxalq təşkilatlar bunu görməlidir, erməni vəhşiliyini görməlidir.

**Bir daha demək istəyirəm ki, bu gün ermənilərə havadarlıq edənlər gəlsinlər, görsünlər, bizim məscidlərimizi nə günə qoyublar və təkcə bu məscidi deyil.** Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb. Zəngilan rayonunda yarıdağılmış bəzi məscidlərdən tövlə kimi istifadə olunub, orada donuz saxlanılıb. Ağdam məscidində donuz saxlanılıb və bu, bütün müsəlman aləminə qarşı cinayətdir, islam dininə qarşı cinayətdir. Bütün müsəlman dövlətləri bunu görməlidir və biz bu həqiqətləri bütün müsəlman ölkələrinin rəhbərlərinin diqqətinə çatdırırıq. Azad edilmiş torpaqlara bu gün gələn xarici qonaqlar erməni vəhşiliyini öz gözləri ilə görürlər. Ermənistan dövləti bizə qarşı mədəni soyqırımı törədib. Biz isə bütün tarixi, dini abidələrimizi bərpa edəcəyik. Bu gün Zəngilan şəhərində yerləşən məscidin yenidən bərpası, konservasiyası işlərinə start verilir".

**"Qərbi Zəngəzur da bizim tarixi torpaqlarımızdır və o torpaqlardan Zəngəzur dəhlizi keçəcək"**

**Zəngilan rayonuna səfər zamanı Mincivan qəsəbəsində olan ölkə rəhbəri Naxçıvana dəmir yolu və avtomobil yolunun açılacağını deyib. Prezident Mincivan qəsəbəsinin qədim yaşayış məntəqəsi olduğunu bildirib:** "Orada dəmir yolu stansiyası var idi. Birinci Qarabağ müharibəsindən sonra ermənilər bütün dəmir yolunu söküb aparmışlar. O relslərin bir hissəsini satmışdılar, bir hissəsindən isə tank əleyhinə istehkamlar qurmuşdular. Biz indi yenidən dəmir yolunu çəkəcəyik. Bu işlərə start verildi. Mən bir müddət əvvəl Horadiz qəsəbəsində Horadiz-Ağbənd dəmir yolunun təməl daşını qoydum. Bu dəmir yolu Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcək. Əslində, Zəngilan rayonu coğrafi baxımdan Şərqi Zəngəzur mahalında yerləşir və Şərqi Zəngəzuru Qərbi Zəngəzurla birləşdirib Naxçıvana dəmir yolu açacağıq və həmçinin avtomobil yolu açılmalıdır. Zəngilan coğrafi nöqteyi-nəzərdən Şərqi Zəngəzur bölgəsinə aiddir və Şərqi Zəngəzurda yerləşir. Qərbi Zəngəzur da bizim tarixi torpaqlarımızdır və o torpaqlardan Zəngəzur dəhlizi keçəcək. Beləliklə, Azərbaycanın əsas hissəsi Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu vasitəsilə birləşəcək".

**"İnfrastruktur işləri öz qaydasında davam edir"**

**Prezident İlham Əliyev Zəngilan rayonunda beynəlxalq hava limanının təməlqoyma mərasimində deyib ki, Zəngilan rayonunun coğrafi yerləşməsi və burada olan imkanlar təbii ki, Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır:** "Təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaq". Prezident bildirib ki, Zəngilanda birinci kənd layihəsinin artıq icra edilməsinə başlanılıb: "Ağalı kəndinin təməl daşı qoyulub. Bu, böyük qayıdışın birinci addımıdır. Biz müharibədən bir neçə ay keçəndən sonra artıq bu işlərə də start verdik. İnfrastruktur işləri öz qaydasında davam edir. İndi birinci "ağıllı kənd" layihəsi olan Ağalı kəndinin bərpasına start verilib. Ağalı kəndi, əslində, üç kənd - Birinci, İkinci, Üçüncü Ağalı kəndləri oktyabrın 28-də işğalçılardan azad edilib. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu və bu, nümunəvi kənd olacaq. Çünki bu kənddə tətbiq olunacaq texnologiyalar ən müasir standartlara cavab verir. Həm tikiləcək evlər, ictimai binalar, sosial obyektlər, həm də iş yerləri, əkin sahələri müəyyən edilib. Zəngilanın bütövlükdə təbiəti və təbii sərvətləri bu rayonu Azərbaycanın ən qabaqcıl rayonlarının birinə çevirmək üçün imkanlar verəcək. Böyük qayıdış başlayıb".

**"İşğaldan azad edilmiş ərazilərdə bizimlə işləmək üçün dost ölkələrdən şirkətlər dəvət edəcəyik"**

**Dövlət başçısı vurğulayıb ki, bizimlə işləmək üçün dost ölkələrdən şirkətlər dəvət ediləcək:** "Bu gün İsrail şirkəti, İtaliya şirkəti, Azərbaycanın iki dost ölkəsindən olan şirkətlər bu mühüm layihəyə qoşulur. Bizim beynəlxalq əməkdaşlığımız var. Türkiyədən, Çindən, İsraildən, İtaliyadan olan şirkətlər var, hamısı dost ölkələrdir. Bu, həqiqətən də yaxşı beynəlxalq əməkdaşlıqdır və mən əminəm ki, bu, sadəcə olaraq, ilk addımdır. Bu layihənin uğurlu icrası sözsüz, bizə imkan verəcək ki, bu təcrübədən Qarabağın digər yerlərində istifadə edək. Çünki biz yüzlərlə kənd, qəsəbə və şəhərləri bərpa etməliyik".

**"Ermənistanla sərhədi tam bərpa etdik"**

**Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında çıxış edən ölkə rəhbəri qeyd edib ki, sərhəd boyunca bütün lazımi infrastruktur işləri aparılır, bütün texnika səfərbər edilib:** "Bu sərhədin uzunluğu 500 kilometrə yaxındır. Bu sərhəd 30 ilə yaxın müddət ərzində işğalçı qüvvələrin əlində idi. Biz Vətən müharibəsində Qələbə qazanaraq bu sərhədi də tam bərpa etdik, Zəngilan və Qubadlı rayonlarını, Laçın rayonunun bir hissəsini döyüşərək azad etdik. Laçın rayonunun böyük hissəsini və Kəlbəcər rayonunu düşmən artıq məcbur olub kapitulyasiya aktını imzalayaraq bizə qaytarıb. Hazırda o ərazilərdə lazımi işlər aparılır".

**"Azərbaycan-İran sərhədi tam bərpa edilib"**

**Prezident bildirib ki, Vətən müharibəsi dövründə Azərbaycan-İran sərhədi tam bərpa edilib, işğal altında olmuş 132 kilometr sərhəd bərpa edilib:** "Müharibədən dərhal sonra sərhəd boyunca bütün lazımi istehkam, mühafizə işləri görülməyə başlamışdır. Bu hərbi hissənin fəaliyyətə başlaması bunun bariz nümunəsidir. Bütün sərhəd boyunca - həm Azərbaycan-İran, həm Azərbaycan-Ermənistan sərhədləri boyunca lazımi işlər aparılır. Azərbaycan-İran sərhədi dostluq sərhədidir. Bu sərhədin qorunması Azərbaycan-İran əlaqələrinin inkişafı üçün də çox böyük önəm daşıyır. Bizim İran İslam Respublikası ilə digər istiqamətlərdə sərhədimiz var və bu, sözün əsl mənasında, dostluq, əməkdaşlıq sərhədidir. Hər iki ölkənin sərhəddən keçən vətəndaşları bundan faydalanırlar. Eyni zamanda, ildən-ilə artan yüklərin həcmi Azərbaycan-İran əlaqələrinin inkişafından xəbər verir".

**İsmayıl**



# Prezident İlham Əliyev söz verdi

## Zəngilana növbəti səfərində o ailənin evində çay içəcək

**Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar.**

Dövlət başçısı səfər zaman Zəngilan rayonunun sakinləri ilə görüşüb.

Qadın sakin: Xeyr, öz evimizdə yaşayırıq. Öz torpağımıza gəlməyə hazırıq. Bir arzum var, o gün olsun, bu layihə başa çatdırılsın, Ağalı camaatımız gəlsin kəndə yığışsın. Çünki camaatımız zəhmətkeş adamlardır, bərpa edəcəyik. Sizdən xahiş edirəm ki, ikinci dəfə bu kəndə gələndə mənim evimə gəlib bir stəkan çayımı içəsiniz.

Prezident İlham Əliyev: Yaxşı. Söz verirəm sizə. Mütləq gələcəyəm, açılışa da gələcəyəm və İnşallah, yaxın zamanlarda kənd yenidən qurulacaq. Bilirsiniz ki, birinci bərpa olunacaq kənd Ağalı kəndidir.

# Ceyhun Bayramov və Lavrov telefonla danışıb

## Tərəflər bölgədə hazırda mövcud olan vəziyyəti müzakirə ediblər




**Cari ilin 27 aprel tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Tərəflər bölgədə hazırda mövcud olan vəziyyəti və üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri, o cümlədən bölgədə iqtisadi və nəqliyyat əlaqələrinin açılması ilə bağlı üçtərəfli işçi qrupunun fəaliyyətini müzakirə ediblər.

Nazirlər, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinə daxil olan məsələlər ətrafında fikir mübadiləsi apariblar.

# Bulvarda Müslüm Maqomayevin heykəli ucaldılacaq

**Görkəmli sənətkar, Xalq artisti Müslüm Maqomayevin heykəlinin hazırlanması prosesinə başlanılıb.**

Bu barədə heykəlin müəllifi Xalq rəssamı Ömər Eldarov məlumat verib.

O, heykəlin bürüncdən tökülmə mərhələsində olduğunu deyib:

"Heykəlin hazırlanması üzərində işlər artıq gedir, bürüncdən tökülmə mərhələsindədir. Yəqin ki, yaxın günlərdə yekunlaşacaq. Amma nə vaxt quraşdırılacağını deyə bilmərəm. Çünki postamentin hazırlanmasına müəyyən vaxt lazımdır".

Xalq rəssamı heykəlin Dənizkənarı Milli Parkda ucaldılacağını vurğulayıb.

Qeyd edək ki, Prezident İlham Əliyev Müslüm Maqomayevin abidəsinin ucaldılması haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Bakı şəhərində görkəmli sənətkar Müslüm Maqomayevin abidəsi ucaldılacaq.

# Türkiyənin yanındayıq!

## Millət vəkilləri Baydeni tənqid "atəşinə tutdular"

Dünən Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. İclas zamanı gündəliyə daxil olan 8 məsələ ilə yanaşı, cari mövzularla bağlı da müzakirələr aparılıb. Mövcud problemlərlə bərabər deputatlar əsasən, ABŞ Prezidenti Co Baydenin qondarma erməni "soyqırımı"nı dilə gətirməsi məsələsinə münasibət bildiriblər.



Türkiyənin dünya düzənində rolunun artması böyük gücləri narahat edir

**"Xocalı soyqırımına göz yumanlar saxta "erməni soyqırımı"nı dilə gətirir"**

**Parlament sədri Sahibə Qafarova deyib ki, Xocalı soyqırımına göz yumanlar saxta "erməni soyqırımı"nı dilə gətirir.** Onun sözlərinə görə, 106 il əvvəl ermənilərin guya soyqırımına məruz qalması ilə bağlı iddia Türkiyə və ABŞ arasında siyasi gərginlik yaradıb. Sədr bildirib ki, erməni şovinistlərin və havadarlarının yalanı həqiqət kimi qələmə vermək cəhdlərinin dəfələrlə şahidi olmuşuq: "Bir sıra tarixçilərin, o cümlədən amerikalı alimlərin araşdırmalarında da "erməni soyqırımı"nın cəfəngiyat olması ilə bağlı nəticə hasil olur. Anadolu və Cənubi Qafqaz ərazilərində ermənilər tərəfindən soyqırımı cinayətləri mərhələ-mərhələ təşkil edilib. 1900-cü illərdə ermənilər 50 mindən çox azərbaycanlı qətlə yetirib. Əslində soyqırımı baş verib. Bunu ermənilər edib. Qurbanlar isə azərbaycanlılar, türklər və burada yaşayan başqa xalqlar olub. Xocalı soyqırımında yüzlərlə azərbaycanlı qətlə yetirilib, amansız işgəncələrə azərbaycanlılar məruz qalıb. Xocalı soyqırımı kimi qətliama göz yumanlar tərəfindən saxta erməni soyqırımı ilə bağlı iddialar səsləndirilməsi müşahidə edilir. Türkiyə dövlətinin qərarı ilə Osmanlı dövlətinin arxivləri açılıb. Arzu edən istər erməni tarixçilər, istərsə də digərləri bu faktlarla tanış ola bilər. Azərbaycan cəmiyyəti və Azərbaycan Prezidenti qardaş ölkənin yanındadır. Azərbaycan XİN bu məsələ ilə bağlı qəti mövqeyini bildirib. 48 siyasi partiya bu məsələ ilə bağlı etiraz bəyanatı yayıb".

**"Baydenin yaşının elə dövrüdür ki, o, ancaq dünyada sülh üçün çalışmalıdır"**

**Deputat Qüdrət Həsənquliyev vurğulayıb ki, Co Baydenin yaşının elə dövrüdür ki, o, ancaq dünyada sülh üçün çalışmalıdır:** "ABŞ-ın keçmiş Prezidenti Donald Tramp Co Baydeni yuxulu Co adlandırırdı. Doğrudan da Baydenin yuxudan ayılmasına böyük ehtiyac var. Biz ABŞ-ın bu mövqeyini daha öncə də görmüşdük. Amerika ermənilərin Azərbaycan torpaqlarını işğal etməsini, azərbaycanlılara qarşı soyqırımlara heç bir münasibət bildirmədi. Əksinə, Azərbaycan 90-cı illərdə bəzi torpaqlarını azad edəndə 807-ci düzəlişi etdilər". Q.Həsənquliyevin sözlərinə görə, əgər ABŞ Paşinyana dəstək vermək istəyirsə, bunu başqa cür edə bilərdi: "Fransa senatının açıqlamaları, Baydenin bu çıxışı göstərir ki, artıq onlar vasitəçilik missiyasını itiriblər".

**"Bayden çox böyük səhv etdi"**

**Millət vəkili Vahid Əhmədov qeyd edib ki, bir sıra dövlətlər Azərbaycanın 44 günlük müharibədə əldə etdiyi zəfəri qəbul etmək istəmirlər.** Deputat bildirib ki, Türkiyə müharibə dövründə Azərbaycanın yanında olub: "Fransa 44 günlük müharibə dövründəki xidmətindən bundan sonra da əl çəkən deyil. Fransa Türkiyə və Azərbaycana qarşı belə murdar əməllərini davam etdirəcək. Digər tərəfdən, 40 ildir ABŞ prezidentləri "soyqırımı" sözünü dilə gətirmirdi. Bayden seçki dövründə ermənilərə verdiyi sözü yerinə yetirmək üçün indi bu sözü işlətdi və çox böyük səhv etdi. Onsuz da Amerika-Türkiyə münasibətlərində soyuqluq var idi. Türkiyə və ABŞ prezidentləri Brüsseldə görüşəcəkdilər. Əlbəttə, Türkiyənin dünya düzənində rolunun artması bu dövlətləri qane etmir. Azərbaycan Prezidenti bu məsələyə Ərdoğanla telefon danışığında çox yaxşı qiymət verdi".

**"Ermənistanı müdafiə edən böyük güclər var"**

**Deputat Sabir Rüstəmxanlı bildirib ki, Azərbaycan 1918-20-ci illərdə demokratik seçki ənənələrini yaradıb.** Müstəqilliyi bərpa edəndən sonra da yeni seçki ənənələrini formalaşdırır. Onun sözlərinə görə, buna baxmayaraq, Azərbaycanda bütün müsbət tendensiyaları görməzdən gələn, Ermənistanı müdafiə edən böyük güclər var: "Baydenin seçilməsi ilə bağlı legitimlik hələ də sual altındadır. Bu gün dünyaya demokratiyadan dəm vuran Avropa ölkələrinə Türkiyə dərs verib. Hesab edirəm ki, Azərbaycan demokratik seçki ənənələrini davam etdirməlidir, güclü şəkildə demokratiya ənənələrini inkişaf etdirməlidir. MSK-nın bundan sonrakı prosesləri rayonlarda davam edəcək. Rayonlarda siyasi partiyaların istəkləri ilə yerli icra orqanlarının istəkləri üst-üstə düşmür. Yeni tərkibdən xahiş edirəm ki, gələcəkdə MSK-nın siyasi partiyalarla işi elə qurulsun ki, yerli icra hakimiyyətləri ilə siyasi partiyalar arasında problem yaranmasın".

**"Bakı böyük şəhər bələdiyyəsi yaradılmalıdır"**

**Deputat Fazil Mustafa parlamentdə Bakı Bələdiyyəsinin yaradılmasını təklif edib:** "Səlahiyyət məsələsinə bir daha baxmalıyıq. Dünyanın inkişaf etmiş ölkələrində bələdiyyələrin səlahiyyətləri çoxdur. Azərbaycanda ciddi struktur islahatlarına başlanmalıdır. Bakı Böyük şəhər Bələdiyyəsinin yaradılması eksperiment ola bilər. Proporsional bələdiyyə seçkiləri keçirilməlidir. Siyasi partiyalar öz namizədləri ilə iştirak etməlidir. Bununla da siyasi partiyaların funksional fəaliyyəti daha açıq şəkildə özünü büruzə verəcək".

**İsmayıl Qocayev**



## Məzahir Pənahov yenidən MSK-nın sədri seçildi

**Dünən Mərkəzi Seçki Komissiyasının yeni tərkibinin ilk iclası keçirilib. İclasda MSK-nın 18 yeni və 3 ehtiyat üzvü, Milli Məclisin Sədri Sahibə Qafarova və Aparat rəhbəri Səfa Mirzəyev də iştirak ediblər.**

Yeni tərkibdə keçirilən ilk iclasında Məzahir Pənahov yenidən qurumun sədri seçilib. Rövzət Qasımov isə qurumun sədr müavini olub. Qeyd edək ki, bundan əvvəl də Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımov olub. İclasda Komissiyanın katibləri də məlum olub. Mikayıl Rəhimov və Arifə Muxtarova qurumun katibi seçiliblər. Bu iki şəxs də bundan öncə eyni vəzifələri icra ediblər.

**MSK-nın yeni tərkibi ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi, YAP Səbail rayon təşkilatı gənclər birliyinin sədr müavini Fuad Heydər bildirib ki, 2000-ci ildən fəaliyyət göstərən Mərkəzi Seçki Komissiyası 21 il ərzində öz işini layiqincə görə bilib. Analitik hesab edir ki, MSK yarandığı gündən etibarən demokratik seçki sistemi formalaşdırıb:** "Sədr Məzahir Pənahov işinin peşəkarıdır. Onun indiyə qədərki fəaliyyətində nöqsan aşkar edilməyib. Məlum olduğu kimi artıq MSK-nın tərkibinə yeni üzvlər seçilib. Demək olar ki, Komissiya vətəndaş cəmiyyəti tərəfindən tam nəzarətdədir. Formalaşmış hazırkı komanda güclüdür və seçki prosesini demokratik, şəffaf təşkil etmək bacarığına malikdir. Əlbəttə, iş olan yerdə nöqsanların olması təbiidir. Əminik ki, növbəti seçkilərdə peşəkarlıq sayəsində heç bir nöqsanla üzləşməyəcəyik. Qurumun işindən də narazılıq olmayacaq. Yeni tərkibə uğurlar arzulayıram".

**İsmayıl**

# Azərbaycan regionun nəqliyyat qovşaqlarının habına çevrilir

## Zəngilandan Naxçıvana çəkiləcək dəmir yolu gediş-gəlişi asanlaşdıracaq

Prezident İlham Əliyev Zəngilan rayonuna səfəri zamanı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulduğunu və bu dəmiryolunun Azərbaycanın əsas hissəsini Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana birləşdirəcəyini bəyan edib. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xətti ölkəmiz üçün həm strateji, həm də ciddi iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı Zəngəzur dəhlizinin əsas elementlərindən biri olacaq. Artıq dəmiryolunun inşaatı ilə bağlı işlər gedir.

*Mühüm layihə ilə bağlı fikirlərini bölüşən millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov deyib ki, dəmir yolu xətti işğaldan azad olunan ərazilərimizə gediş-gəlişi daha da asanlaşdıracaq. Deputatın sözlərinə görə, vətəndaşlarımız alternativ nəqliyyat imkanından istifadə edə biləcəklər:* "Bərpa və yenidənqurma prosesindən sonra işğaldan azad olunan ərazilərimizə getmək istəyənlərin sayının çox olacağını nəzərə aldıqda bu nəqliyyat infrastrukturunun üstünlüklərini təsəvvür etmək çətin olmaz. Dəmir yolu nəqliyyatının inkişaf etdirilməsi kontekstində dəhlizin istifadəyə verilməsi praktik olaraq Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevirəcək.



Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir. Birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına, həm də maliyyə dəstəyi nümayiş etdirir. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq".

**V.Bayramov vurğulayıb ki, dəhliz həm də Azərbaycanın qərb hissəsində fəaliyyət göstərən iş adamları ilə Naxçıvandakı iş adamları arasında əlaqələrin, əməkdaşlığın qurulması baxımından vacibdir:** "Bu da qısa vaxtda məhsulların nəql edilməsinə imkan yaradacaq. Bunun Azərbaycanın iqtisadi inkişafına, eləcə də Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına müsbət təsirləri olacaq. Zəngəzur dəhlizi ilə yalnız dəmiryolu deyil, eyni zamanda avtomobil yolunun da istifadəyə veriləcəyi gözlənilir".

**İsmayıl Qocayev**

# "Daha çox icra hakimiyyətlərindən narazılıqlar var"

Zahid Oruc: "Hələ də vətəndaşın qanını zəli kimi soranlarla, başqasının mal-mülkünü əlindən haqsız yerə almaqla bağlı siqnallar alınır"



Alimpaşa Adil oğlu Məmmədov Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Xatırladaq ki, Alimpaşa Adil oğlu Məmmədov Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı şəhər Vergilər Departamentinin rəisi vəzifəsində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 2014-cü il tarixli Sərəncamı ilə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. Ötən gün yerli media və sosial şəbəkələrdə Alimpaşa Məmmədovun, eləcə də Şəmkir Rayon İcra Hakimiyyətinin bir neçə məsul əməkdaşının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən təşkil olunan xüsusi əməliyyat nəticəsində saxlanıldığı barədə məlumat yayılıb.

**İcra orqanlarındakı həbsləri "Şərq"ə şərh edən Sosial Tədqiqatlar Mərkəzinin (STM) idarə heyətinin sədri, millət vəkili Zahid Orucun fikrincə, icra başçıları ilə bağlı baş verənlər sadə məsələ deyil:** "Çünki dövlət idarəetmə sistemində ali icra hakimiyyəti orqanlarının üstün hüquqları təsbit olunub. İcra başçılarının yüz minlərlə insanın üzərində qərar vermək səlahiyyətləri var. Onlar vətəndaşların daha çox müraciət etdikləri orqanlardan birinə çevriliblər. Bu səbəbdən icra başçıları daim ümumxalq müzakirəsi altındadırlar. Fəaliyyətləri daim təftiş olunur və olunacaq da. Onların həbslərində bölgələrdən gələn siqnalların, məlumatların rolu istisna edilmir".

*Z.Oruc vurğulayıb ki, STM fəaliyyəti dövründə ictimaiyyəti narahat edən problemləri və onların xəritəsini müəyyənləşdirməyə çalışır:* "Cəmiyyətdə aparılan sorğular zamanı bəlli olub ki, daha çox icra hakimləri və bu orqanlarda çalışan digər vəzifəli şəxslərlə bağlı narazılıqlar var. Hələ də vətəndaşın qanını zəli kimi soranlarla, haqsız rəqabət, başqasının mal-mülkünü əlindən haqsız yerə almaqla bağlı siqnallar alınır. Kimsə özündə əlahiddə bir güc, qədimdən gələn fironluq hissi daşımamalıdır. Dövlət başçısı da daim vəzifə sahiblərindən bunu tələb edir. Kimsə özünü mühakimədən kənar üstün səlahiyyətlərə malik sayırsa, hamının iradəsinə qarşı gedəcək və vəzifəsini itirəcək".

**Yeganə Bayramova**

## Türkiyə parlamenti Baydenin açıqlamalarını pisləyən bəyanat yayıb

**Türkiyə Böyük Millət Məclisi ABŞ Prezidenti Co Baydenin 1915-ci il hadisələri ilə bağlı çıxışını pisləyən bəyanat yayımlayıb.**

Trend-in məlumatına görə, bəyanatı parlamentdə təmsil olunan partiyalardan Ədalət və İnkişaf Partiyası (AKP), Cümhuriyyət Xalq Partiyası (CHP) və Milliyyətçi Hərəkat Partiyası (MHP) imzalayıb.

Bəyanatda deyilir: "ABŞ prezidentinin 1915-ci il hadisələri ilə bağlı erməni diasporunun iddialarını əks etdirən açıqlamalarını şiddətlə pisləyirik".

## Gürcüstan parlamentinə yeni sədr seçildi



**Kaxa Kuçava Gürcüstan parlamentinin yeni spikeri seçilib.**

Yeni spikerin lehinə 86, əleyhinə 6 deputat səs verib.

Hakim "Gürcü arzusu - Demokratik Gürcüstan" partiyasının irəli sürdüyü K.Kuçava spiker vəzifəsinə yeganə namizəd olub.

*Qeyd edək ki, bundan əvvəlki spiker Arçil Talakvadze aprelin 24-də istefa vermişdi.*

## Daha bir şəhidimizin övladı dünyaya gəlib

Körpənin adına 5000 AZN-lik hesab açılacaq



**"YAŞAT" Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir.**

Daha bir şəhidimizin yeni doğulan övladının, şəhidimiz Fəxrəddin Fərəcovun Quba şəhərində doğulan övladı Fəxrəddinin zəruri xərcləri Fond tərəfindən qarşılanıb. Bu məqsədlə 1000 AZN anaya təqdim olunub və dünyaya yeni göz açan körpənin adına 5000 AZN-lik hesab açılacaq.

Həmin hesaba vəsait Fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və həmin şəhid övladı 18 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

*Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən, bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər.*

*Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və Fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.*

## Təhsil naziri I siniflərə qəbuldan yazdı

**Təhsil naziri Emin Əmrullayev birinci siniflərə qəbul prosesi barədə sosial şəbəkədə yazıb.**

"Bu gün birinci siniflərə qəbul prosesinə start verildi. Prosesin daha çevik və şəffaf təşkili məqsədilə dövlət ümumi təhsil müəssisələrinin birinci siniflərinə qəbul elektron sistem vasitəsilə həyata keçirilir. Belə ki, keçən tədris ilində məktəbəhazırlıq qruplarında təhsil alan şagirdlərdən 94.000 nəfəri artıq I sinfə birbaşa yerləşdirilib.

Bütün valideynlər və qanuni nümayəndələr uşaqları sərbəst şəkildə www.mektebeqebul.edu.az elektron portalı vasitəsilə qeydiyyatdan keçirə bilərlər. Qəbulla bağlı hər hansı çətinliklə qarşılaşdıqda qeyd olunmuş "whatsapp" hesablarına və yerlərdə (Bakı şəhəri daxil olmaqla) fəaliyyət göstərən alternativ qeydiyyat mərkəzlərinə müraciət edə bilərsiniz - https://baku.edu.gov.az/az/page/9/5548" - nazir qeyd edib.

# İlham Əliyevlə Ərdoğan regionda sülhün təminatçısıdır

*ABŞ-ın görülən işlərə kölgə salmaq, yenidən bölgəyə barıt atmaq planı baş tutmayacaq*

ABŞ Prezidenti Co Baydenin ədalətsiz, heç bir tarixi fakta söykənməyən, uydurma soyqırım iddiası Türkiyə və ABŞ münasibətlərinə ciddi zərbə vurdu. Bunun Azərbaycan üçün ziyanları olmamış deyil. Baydenin hadisələri "soyqırımı" kimi tanıması ABŞ tarixində böyük siyasi səhvdir və tarixin saxtalaşdırılmasına verilən bir dəstəkdir.



Bu gün Türkiyə regionda ABŞ-ın etibarlı tərəfdaşıdır. Bayden bu münasibətləri gücləndirmək əvəzinə, hansısa uydurma hadisələri "soyqırımı" adlandıraraq Türkiyə kimi tərəfdaşı ilə münasibətləri korlamış oldu.

**Millət vəkili Müşfiq Məmmədlinin "Şərq"ə açıqlamasına görə, Baydenin 1915-ci ildə baş vermiş hadisələri "erməni soyqırımı" kimi qiymətləndirməsi heç də ürəkaçan olmayan Türkiyə-ABŞ münasibətlərinə ciddi zərbə vurmuş oldu.**

Parlament üzvü qeyd edib ki, beynəlxalq münasibətlər sistemində ikili standartlar siyasətini yürüdən ABŞ tarixçilərin üzərinə düşən məsələni prezident səviyyəsində bəyanat verməklə qərəzli mövqeyini açıq şəkildə ortaya qoydu: "Əlbəttə, bir prezidentin sözü ilə hansısa millət soyqırımçı ola bilməz. Bu açıqlamanın nə tarixi baxımdan, nə də siyasi baxımdan hüquqi və sübutu dəyəri var. Dəfələrlə Türkiyə dövlətinin müraciətlərinə baxmayaraq, arxivlərin açılması, tarixi həqiqətlərin üzə çıxması prosesi məhz erməni havadarları olan dövlətlər tərəfindən cavabsız qalıb.

Tarixi təhrif edərək təbliğat maşını yalan istehsal edən erməni diasporunu razı salmaq, ona sırınmaq istəyən Baydenin heç də uzaq keçmişi olmayan Xocalı soyqırımına biganə qalması, göz yumması ədalət prinsiplərini ayaqlamaq deməkdir.

30 il müddətində ATƏT-in Minsk qrupu çərçivəsində Ermənistan-Azərbaycan arasında olan münaqişənin həlli yolunda bir addım atmayan, əksinə, ermənipərəst mövqe ortaya qoyan ABŞ hansı haqq-ədalətdən danışa bilər?".

*M.Məmmədli vurğulayıb ki, uzun müddət işğal altında qalmış torpaqlarımızın ermənilər tərəfindən vandalizmə məruz qalması, şəhərlərin viran qoyulması nədənsə, Baydenin diqqətini cəlb etməyib:* "Özünü demokratiyanın beşiyi adlandıran ABŞ bilməlidir ki, "Bir millət, iki dövlət" şüarını özünə əsas seçən Türkiyə və Azərbaycana yönəlmiş saxta siyasətin sonu iflasa məhkumdur. Cənab Prezident İlham Əliyev və qardaş Türkiyə dövlətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan regionda sülhün təminatçısıdır. ABŞ-ın görülən işlərə kölgə salmaq, yenidən bölgəyə barıt atmaq planı baş tutmayacaq".

**Yeganə Bayramova**

# Yeni siyasi pəncərə açılır

## Türkiyə parlamentində Ermənistanın müharibə cinayətlərinin müzakirəsi əhəmiyyətli hadisədir

Ermənistanın müharibə cinayətləri Türkiyə parlamentində müzakirə olunub. Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentopun iştirakı ilə parlamentdə "İkinci Qarabağ müharibəsi və Ermənistanın Hərbi Cinayətlər Paneli", "Hərbi Cinayətlər Fotoşəkil Sərgisi" keçirilib.



Türkiyə ərazisində yaşayan 80 min erməni vətəndaşı ya deportasiya olunmalıdır, ya da həqiqəti dillərinə gətirməlidir

Tədbirdə 1915-ci il hadisələri ilə bağlı Türkiyəyə qarşı haqsız ittihamlar və iddialar, "İkinci Qarabağ müharibəsindəki müharibə cinayətləri", insan hüquqlarının pozulması siyasi, hüquqi, elmi, akademik baxımdan dünyaya çatdırılması üçün ictimailəşdirilib.

**Siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyevin "Şərq"ə açıqlamasına görə, TBMM-də erməni vəhşiliklərinin müzakirəsi çox lazımlı bir məsələdir:** "Türkiyə gərək bu mövzunu çoxdan müzakirə edərdi. Çünki ötən əsrin əvvəllərində genosidə məruz qalan məhz türklər olub, nəinki ermənilər. Ancaq türk ordusunda erməni kökənli 17 general, 365 yüksək rütbəli zabit, 1700 nəfərdən çox aşağı zabit heyəti və 7780 əsgər olub. Yəni türk ordusunda 9 minə yaxın erməni olubsa, burada hansı soyqırımdan danışmaq məsələsi gündəmə gəlir? Yaxşı olar ki, parlamentdə Sarıqamış və Ərzurumla bərabər müasir dövrdəki erməni vəhşiliklərini gündəmə gətirsinlər. 1918-ci ildə Bakıda, Şamaxıda, Qubada, İrəvanda və Naxçıvanda törədilən vəhşiliklər də müzakirə olunmalıdır. Həmçinin son 30 ildə ermənilərin əvvəlcə Qarabağlıda, sonra da Meşəli, Malbəylidə törətdikləri və əsrin ən böyük faciəsi olan Xocalı soyqırımı gündəmə gətirilməlidir".

*"Türkiyə parlamentində erməni cinayətlərinə dair məsələlərin müzakirəsi hansı effekti verəcək" sualına gəlincə, C.Nuriyev vurğulayıb ki, erməni cinayətlərinin gündəmə gəlməsi və Türkiyə arxivində olan materialların üzə çıxması çox mühümdür:* Türkiyə ərazisində 80 minə yaxın Ermənistandan köçən erməni var. Onlar deportasiya olunmalıdır. Əks halda birmənalı şəkildə Ermənistandan imtina etməlidirlər. Çünki Türkiyə Prezidenti də erməni keşişinə məktub ünvanlayıb. Türkiyədəki ermənilər ya həqiqəti dillərinə gətirməli, ya da Türkiyəni tərk etməlidirlər. Heç bir erməni soyqırımı olmayıb.

Türkiyənin parlamentdə ermənilərlə bağlı mövzunu müzakirə etməsi yeni bir istiqamət açacaq. Azərbaycan olaraq hər zaman qardaş ölkənin yanındayıq. Nə qədər ki, Türkiyə 44 günlük müharibə vaxtı yanımızda oldu, biz də qardaş ölkəni dəstəkləyirik. Azərbaycan Prezidenti də hər zaman bunu elan edir. Azərbaycan ziyalılarının da borcudur ki, hamılıqla birlikdə Amerikanın ağılsız və düşünülməmiş, amma həddindən artıq riyakar mövqeyini gündəmə gətirməklə onların törətdikləri bütün vəhşilikləri və soyqırım aktlarını dünyaya bəyan edək.

Ona görə də məhz TBMM-də ermənilərin müharibə cinayətlərinə dair müzakirələrin yer alması yeni siyasi pəncərənin açılmasına səbəb olacaq. Bu da bizə lazım idi".

**Yeganə Bayramova**

## Görüntünü kiçik tibb işçisi çəkib

### Arif Quliyevin xəstəxanadan videosunu yayan şəxs cəzalandırılıb



**"Yeni klinika"da koronavirus xəstəliyindən müalicə alan xalq artisti Arif Quliyevin xəstəxanadan görüntülərini sosial şəbəkələrdə və KİV-lərdə yayan şəxs cəzalandırılıb.**

Klinikadan APA-ya verilən məlumata görə, koronavirus xəstələrinin müalicəsi zamanı reanimasiya otağına telefonla giriş qadağandır.

"Amma xalq artistimizin SİPAP aparatına qoşulmuş vəziyyətdə görüntüsünü xəstəxanada çalışan kiçik tibb işçisi çəkib və onun nüfuzlu şəxs olduğunu düşünərək paylaşıb. Bununla bağlı həmin əməkdaş ciddi cəzalandırılıb və bütün əməkdaşlara ictimai nüfuzundan asılı olmayaraq hər hansı şəxsin foto və videosunun özünün xəbəri olmadan çəkilməsi və paylaşılmasının qadağan olması barədə xəbərdarlıq edilib", - açıqlamada belə deyilir.

## Avtomobillərin şüşələrinə örtüklərin çəkilməsinə dair yeni qayda hazırlanacaq

**Azərbaycanda nəqliyyat vasitələrinin şüşələrinə örtüklərin çəkilməsinə dair yeni qayda hazırlanacaq.**

APA-nın məlumatına görə, bununla bağlı Baş nazir Əli Əsədov müvafiq sərəncam imzalayıb.

Sərəncama əsasən, Daxili İşlər Nazirliyi Ədliyyə Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, nəqliyyat vasitələrinin şüşələrinə örtüklərin çəkilməsi qaydasının layihəsini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

# Müharibə olmayacaq

### *Qərbin əsas məqsədi Rusiyanı maddi itkilərlə çökdürməkdir*



**Rusiya Prezidenti Vladimir Putinlə fransalı həmkarı Emmanuel Makron arasında telefon danışığı olub. Tərəflər Ukraynanın cənub-şərqində gərginliyin artmasından narahatlıqlarını ifadə ediblər.**

Dövlət başçıları iki ölkə arasında "Normandiya formatı"na uyğun əməkdaşlıq qərarını təsdiqləyiblər. İndi əsas məsələ rəsmi Kiyevin ərazi bütövlüyünün necə bərpa olunmasıdır - hərblə, yoxsa sülhlə?

**Azərbaycan Demokrat Partiyası sədrinin müavini, politoloq Həsrət Rüstəmov bu barədə fikirlərini "Şərq"lə bölüşdü:**

"Bir çoxları kimi mən də tərəflər arasında genişmiqyaslı müharibənin başlanacağını düşünmürəm. Çünki belə olsa, bir çox Qərb ölkələri, o cümlədən ABŞ Moskvaya qarşı passiv və ya aktiv şəkildə mübarizəyə qoşulacaq.

Bunu yaxşı bilən Kreml riskə getməz. ABŞ gəmiləri Qara dənizə gələndə Rusiya hərbi qüvvələri Ukrayna ilə sərhədə yığıldı. Sonradan məlum oldu ki, ABŞ manevr edirmiş. Beləliklə, Rusiyaya xeyli iqtisadi ziyan dəydi. Deməli, Qərbin əsas məqsədi Rusiyanı maddi itkilərlə çökdürməkdir".

*H.Rüstəmovun fikrincə, məsələ dinc yolla qaydasına düşəcək:*

"İndi aktiv danışıqlar mərhələsi başlanıb. Bu, onu deməyə əsas verir ki, məsələ siyasi yolla həll olunmağa doğru gedir. Ukrayna Rusiyanın "caynağından" xilas olacaq və Qərbə doğru yaxınlaşacaq.

Ümumiyyətlə, dünyadakı siyasi proseslər Rusiyanın "küncə sıxışdırılmasına" doğru gedir".

**Kənan**

**Ukrayna Prezidenti Vladimir Zelenski bildirib ki, Rusiya Prezidenti Vladimir Putinlə görüşləri olacaq. O qeyd edib ki, öz ofisinə V.Putinlə görüşü təşkil etmək üçün Rusiya Prezident Administrasiyası ilə əlaqə saxlamağı tapşırıb. V.Zelenski deyib ki, görüşün keçiriləcəyi yer onun üçün vacib deyil. Bu gün hər kəsi maraqlandıran əsas məqam Putin ilə Zelenski arasında baş tutacaq görüşün nəticələridir.**



# Rusiya geri addım atmayacaq

### Putinlə Zelenski arasında görüşün nəticəsi olmayacaq

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Əhəd Məmmədli bildirib ki, bu, görüşün elə ciddi bir nəticəsi olmayacaq. O qeyd edib ki, çünki Rusiya real güc görmədikcə, heç bir geri addım atan deyil:**

"Hesab edirəm ki, bu görüşdə hansısa ciddi nəticələr olmayacaq. Hər iki tərəf də öz dediklərində qalacaq. Bir faktı qeyd edim ki, Rusiya real güc görmədiyi təqdirdə heç bir geri çəkilmələr olmayacaq. Təbii ki, real gücü də ABŞ göstərməlidir. Çünki Ukrayna təkbaşına Rusiya ilə üz-üzə qala bilməz".

*Ə.Məmmədli hesab edir ki, Amerika yalnız söz də deyil, realda Ukraynanın arxasında olarsa, o zaman hərbi əməliyyatlarda Ukrayna uğur qazana bilər:* "Əgər Amerika dəstək olarsa, o zaman Ukrayna Donbassda hərbi əməliyyatlara risk edəcək. Təbii ki, fikrimcə, bu, əməliyyatlarda Ukrayna uğur əldə edəcək. Çünki separatçıları əzmək Ukrayna ordusu üçün böyük problem təşkil etmir. Amma Rusiyanın qarşısını almaq onun üçün əsas əngəldir. Bu məsələ də Amerikanın dəstəyindən asılıdır. Ancaq fikrimcə, ABŞ ona dəstək verməyəcək. Ukraynanın yalnız ümidi Türkiyə, Türkiyənin müasir silahlarına qalıb. Ümumiyyətlə, belə münaqişələr danışıqlarla olmur. Bunların bir həlli var, o da güc yoludur. Əks halda mövcud vəziyyət elə əvvəlki kimi də qalacaq".

**Aynurə Pənahqızı**

# Parisdən heç vaxt xeyir gəlməyib

"Fransa parlamentində səslənən sərsəm fikirlərin bir çox səbəbi var: Bunlardan biri Baydenin qondarma "erməni soyqırımı" ifadəsini işlətməsi, erməni lobbisinin Avropada, ABŞ-da və Fransada çox güclü olmasından qaynaqlanır".

**Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Rusif Məmmədsoy söyləyib. Analitik bildirib ki, Fransa-Türkiyə münasibətləri hər zaman gərgin olub.**

"Fransa qardaş ölkənin Cənubi Qafqazda varlığından narahatdır. ATƏT-in Minsk qrupunun 3 həmsədr ölkəsindən biri də məhz Fransadır. Lakin Qarabağ münaqişəsinin həllində məhz həmsədr olmayan Türkiyə iştirak etdi. Fransa tərəfi də bunu qəbul edə bilmir. Makronun Ərdoğana olan qısqanclığının əsas səbəbi budur.

Fransa Türkiyənin Afina əməliyyatına qarşı radikal addımlar atıb. Məşhur "Le monde" qəzetində belə bir məqalə yazıldı: "Kipr məsələsində Türkiyəyə icazə verdik, bu dəfə isə ona imkan vermək olmaz. Bununla Türkiyə güclənir". Bir sözlə, Türkiyənin regionda hər hansı bir addımı Fransanı özündən çıxarır".



## Qarabağdakı sərvətlərimizi istismar edən ölkələrdən də biri məhz Fransadır

**R.Məmmədsoy yaxın illər ərzində Fransa-Türkiyə münasibətlərində yumşalma olacağını düşünmür:** "Qardaş ölkə regional gücə çevrilmək uğrunda mübarizə aparır. ABŞ da Türkiyəyə Fransa kimi münasibət göstərir. Türkiyəni NATO-nun əssas müttəfiqi kimi görmək istəmirlər. Ərdoğan dünənki çıxışında olduqca praqmatik davrandı. Bu da ondan qaynaqlanır ki, o, Türkiyə iqtisadiyyatının xüsusilə indiki pandemiya dövründə həssas olduğunu başa düşür.

Ona görə də düşünür ki, ABŞ-la münasibətlərə xələl gətirmək olmaz. Ərdoğan məcbur idi ki, Baydenlə "yumşaq dildə" danışsın. O, Baydenlə sadəcə müttəfiqdir, tərəfdaş yox. Ərdoğan Fransaya da öz yerini göstərir, yəni biz hələ də NATO-nun əsas müttəfiqiyik deyir. Bu mənada Fransa parlamentindəki sərsəm bəyanatların arxasında onların ermənilərə göstərmək istədikləri qayğı, Ermənistandan umacaqları müəyyən qızıllar dayanır.

Məlumdur ki, Qarabağdakı sərvətlərimizi istismar edən ölkələrdən biri də məhz Fransa idi. Qızıl mədənlərimizdən oğurlanan qızılların əksər hissəsi Fransaya daşınırdı. Bu ölkənin səsləndirdiyi bəyanatlara fikir verməməliyik".

**Yeganə Bayramova**

## Prezident yenə məmurlara nümunə oldu

### İdman insanın inkişafında mühüm rol oynayır



**Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri zamanı idman alətləri ilə məşq edib.** Bu barədə videonu Birinci Vitse-prezident Mehriban xanım Əliyeva şəxsi "İnstagram" hesabında paylaşıb. Beləliklə, dövlət başçısı öz şəxsi nümunəsində vətəndaşlarımıza, o cümlədən məmurlara nümunə olub.

**Sabiq millət vəkili Ağacan Abıyev Prezidentin sözügedən addımı barədə "Şərq"ə danışdı:** "Dövlət başçısı MOK-un prezidenti seçildiyi ilk gündən etibarən idman və bədən tərbiyəsini xalq arasında təbliğ edib, vətəndaşlarımızı sağlamlıqlarının qayğısına qalmağa çağırıb. Ümumiyyətlə, idmanın insanın inkişafında mühüm rolu var. İdmanla məşğul olmayan orqanizmdə təsadüfi funksiyalar əmələ gəlir. Bədəndəki atom və molekullar xaotik fəaliyyət göstərir.

Bu isə enerjinin çox olması ilə əlaqədardır. Ona görə də enerjini sərf etmək lazımdır. Deməli, idmanla, fiziki hərəkətlə məşğul olmaq insanın həm bədənini, həm də ruhunu sağlam edir. Dediyim kimi, artıq enerji bədəndən çıxanda atomlar, molekullar təsadüfi yox, qanunauyğun fəaliyyət göstərir. Beləliklə, idman sağlamlığın rəhnidir".

**Kənan**

# Türkiyə ABŞ-a qarşı səbirli davranır

*Ankaranın ABŞ-la müdafiə və iqtisadiyyat sahəsində ikitərəfli razılaşmaları dayandıracağı inandırıcı deyil*

"Bloomberg" nəşri öz mənbələrinə istinadən yazıb ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-la müdafiə və iqtisadiyyat sahəsindəki razılaşmanı dayandırmaq niyyətindədir. Nəşr bildirir ki, bu addıma səbəb ABŞ Prezidenti Co Baydenin aprelin 24-dəki məlum çıxışıdır. Agentlik yazır ki, Ərdoğanın atacağı addımlar sırasında müdafiə və iqtisadi əməkdaşlıq haqda ikitərəfli müqavilənin dondurulması da yer alır.

Bu müqavilə vaxtilə Ankaraya Suriya və İraqdakı münaqişələr zamanı Vaşinqtonla birgə iş aparmağa yardım etmişdi.

**Mövzuya münasibət bildirən siyasi-şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında bildirib ki, Baydenin "soyqırımı" ifadəsini istifadə etməsindən sonra Türkiyənin münasibətinin səbrli olması diqqət çəkdi.** O vurğulayıb ki, bu, bir tərəfdən Türkiyənin məsələni ciddiyə almadığını göstərməsi, digər tərəfdən, münasibətlərin daha da gərginləşməsini istəməməsindən qaynaqlanır: "Ərdoğan da bu haqda danışarkən, iki ölkənin münasibətlərini pozacaq məsələləri kənara qoymağı, gələcəyə baxmağın vacib olduğunu bildirdi. Türkiyənin ABŞ-la müdafiə və iqtisadiyyat sahəsində ikitərəfli razılaşmaları dayandıracağı inandırıcı deyil. Bu, ilk öncə Türkiyə iqtisadiyyatına ziyandır. 24 apreldən öncə Baydenin "soyqırımı" ifadəsini deyib-deməyəcəyi müzakirəsinin türk lirəsinin dəyər itirməsinə səbəb olması da belə nümunələrdən biridir. Digər tərəfdən, ABŞ-a qarşı hərbi əməkdaşlıq çərçivəsində addım atmağın da effekti böyük olmayacaq".

A.Nərimanlı qeyd edib ki, Ankara Vaşinqtona hərbi əməkdaşlıqla bağlı iki istiqamətdə cavab verə bilər: "Birincisi, İncirlik bazasının bağlanmasıdır. Bu haqda məlumatlar dolaşır, lakin Türkiyənin belə bir addım atmasının effekti böyük olmaz. İncirlik bazası Kipr hərəkatı zamanı Türkiyə tərəfindən bağlandı, həmin vaxt bu baza indiki dövrlə müqayisədə ABŞ üçün daha qiymətli idi. Buna qarşı olaraq, ABŞ Türkiyə iqtisadiyyatına ciddi zərbə vuran sanksiyalar tətbiq etdi. İndi belə bir addımın atılması ABŞ-a daha az təsir edə bilər, çünki Suriyada hərbi bazaları mövcuddur. İkincisi, Malatya bölgəsində Kürəcik bazasını bağlamaq ola bilər. Bu bazada NATO-nun hava hücumundan müdafiə sistemləri yerləşir. Türkiyənin belə bir addımı ABŞ-dan daha çox, NATO-ya qarşı çıxmaq olar. Bu baxımdan, bu ehtimal da zəifdir. Türkiyə NATO ilə qarşıdurma istəmir, çünki hərbi ittifaqda mövqelərinin zəifləməsi, yunan Kiprinin, dolayısı ilə Yunanıstanın önünün aça bilər".



**Analitik hesab edir ki, Türkiyə Baydenə cavab olaraq, ABŞ-ın üzərinə birbaşa hücuma keçməyəcək:** "Əksinə, özünü münasibətlərin gərginləşməsində maraqlı olmayan tərəf kimi göstərəcək və ABŞ-ın əlindəki kartların sıradan çıxarılması istiqamətində hərəkət edəcək. Bunlardan biri, bəlkə də birincisi, PKK-dır. Aprelin 23-də Ərdoğanla Baydenin telefon söhbətindən saatlar öncə Türkiyə ordusu Şimali İraqda PKK-ya qarşı genişmiqyaslı əməliyyata başladı. Bu o deməkdir ki, Ankara Baydenin "soyqırımı" ilə bağlı atacağı addımı öncədən bilirdi və Vaşinqtonun növbəti mərhələdə aktivləşdirəcəyi PKK kartına qarşı qabaqlayıcı addım atdı. Şimali İraqdakı əməliyyatların əsas hədəfi PKK ilə terror təşkilatının Suriya qanadı olan PYD-nin təmas qurduğu Sincar bölgəsini təmizləməkdir. Bununla, İraq və Suriyadakı terrorçuların əlaqəsi kəsiləcək və hər iki cəbhədə ayrı-ayrı hücumlar ediləcək. Baydenin Türkiyəyə qarşı istifadə edəcəyi əsas kart Suriyadakı PYD/YPG terrorçularıdır. ABŞ prezidentinin bu terrorçuları "müttəfiq" adlandırması da bunu göstərir. Türkiyənin Şimali İraqa əməliyyatla yanaşı, Suriyada da yeni əməliyyatlarını görə biləcəyik. Digər tərəfdən, Şərqi Aralıq dənizində Türkiyənin aktivləşəcəyi, xüsusilə mövqelərini gücləndirmək məqsədilə Misirlə təmasları sıxlaşdıracağı gözləniləndir. Əsas mübarizə cəbhələrindən biri də Cənubi Qafqaz olacaq. ABŞ "soyqırımı" məsələsini bölgədə qurulacaq əməkdaşlıq platformasını Ermənistan üzərindən pozmaq, şərtləri özünün diktə edə biləcəyi vəziyyət yaratmaq istəyir. Ermənistanda növbədənkənar parlament seçkiləri bu proseslərin inkişafını müəyyənləşdirəcək məsələ olacaq. Türkiyə və Azərbaycanın bölgədə aktivləşəcəyini, Qarabağda nəzarəti gücləndirmək və Zəngəzur dəhlizinin reallaşması istiqamətində aktiv fəaliyyətini görə biləcəyik. Qeyd etdiyim kimi, Türkiyə ABŞ-la birbaşa qarşıdurmaya getməyəcək, daha çox Vaşinqtonun kartlarını, rıçaqlarını sıradan çıxarmaq addımları atacaq".

**Aynurə Pənahqızı**

# Sistem dəyişməlidir

## Sabir Rüstəmxanlı: "İcra hakimiyyətləri başqa qurumlarla əvəz edilməlidir"



**Ölkə gündəmi kifayət qədər zəngindir. Bir tərəfdə korrupsionerlərə qarşı mübarizə, bir tərəfdə cəmiyyətdə ikrah yaradan davranışlar, bir tərəfdə isə Qarabağın dirçəldilməsi ilə bağlı atılan addımlar... İslahatlar davam edir. Lakin neqativ hallar da az deyil. Odur ki, "Şərq" olaraq ölkə gündəmi barədə millət vəkili, Xalq şairi Sabir Rüstəmxanlı ilə söhbətləşdik:**

**- Bu günlərdə Şəmkirin icra başçısı Alimpaşa Məmmədov da vəzifəsindən azad edildi. Deməli, vəzifəsindən sui-istifadə edən məmurlara qarşı mübarizə davam edir. Bu barədə nə düşünürsünüz?**

- Aparılan islahatlar göz qabağındadır. Özü də bu islahatlar bütün sahələri əhatə edir. Gəncləşmə gedir, bürokratik mexanizmlər sadələşdirilir. Atılan addımların nəticəsi də olur. Onu da deyim ki, icra başçıları köhnə raykom katiblərindən az seçilir. Adları dəyişsə də, onlar əvvəlki ideallar ilə yaşayırlar. Lakin iddia olsa da, imkan yoxdur. İcra başçılarının əvvəlki təsir mexanizmi qalmayıb. Onların bəziləri nüfuzlarını qorumağa çalışırlar. Bu isə nəticə etibarı ilə cinayətə gətirib çıxarır. Ona görə sistem dəyişməlidir, icra hakimiyyətləri başqa qurumlara əvəz edilməlidirlər. Biz bunun üçün fərqli ölkələrin təcrübələrindən yararlana bilərik.

**- İslahatlar səhiyyə sistemi üçün də istisna deyil. Səhiyyə naziri Oqtay Şirəliyevin vəzifəsindən azad edilməsi bu sahə ilə bağlı yeni ümidlər yaradır...**

- Mən sahiyyə sisteminə o qədər də bələd deyiləm. Amma bilirəm ki, əsas problemlərdən biri icbari tibbi sığorta ilə bağlıdır. İkincisi isə dövlət xəstəxanalarında bu və ya digər xidmətdən istifadə üçün pul tələb olunur, dərmanlar çox bahadır.

**- Bəs çıxış yolu nədir?**

- Cəmiyyətin mənəvi kamilliyi düşünülməlidir. Kamil olmayan insan həmişə oğurluğa meyilli olur.

**- Mənəvi kamillikdən danışmışkən, keçmiş deputat Hüseynbala Mirələmovun əxlaqsız videosuna dair sizin münasibətiniz necədir?**

- Mən bu məsələyə münasibət bildirmişəm. Onun hərəkəti ziyalıya, yazıçıya yaraşmayan hərəkətdir.

**- Narahatedici məqamlardan biri də qazilərə lazımi qayğının göstərilməməsi ilə bağlıdır. Belə hallar dövlətin siyasətinə nə qədər uyğundur?**

- Dövlətin şəhid ailələri və qazilərlə bağlı siyasəti məlumdur. Səlahiyyətli qurumlara ciddi tapşırıqlar verilib. Lakin bəzən də məmurlar səviyyəsində həmin göstərişlər yerinə yetirilmir. Bu isə haqlı narazılıqla nəticələnir. Biz sözügedən məsələni dəfələrlə Milli Məclisdə müzakirəyə çıxarmışıq. Qazilərimiz cəmiyyət həyatından kənarda qalmamalı, işlə təmin olunmalıdırlar.

**Kənan**



## Türkiyə Baydenlə yox, ABŞ-la müttəfiqdir

### Məlum bəyanat ABŞ-la Türkiyənin NATO daxilindəki əməkdaşlığına təsir etməməlidir

**ABŞ Prezidenti Co Baydenin "erməni soyqırımı" ilə bağlı bəyanatı ABŞ və Türkiyə arasındakı hərbi əlaqələrə təsir göstərməməlidir.**

Bu sözləri jurnalistlər üçün keçirilən brifinqdə Pentaqonun mətbuat katibi Con Kirbi deyib. C.Kirbi qeyd edib ki, Birləşmiş Ştatlar Türkiyə ilə hərbi münasibətlərdə hər hansı bir dəyişikliyin olmasını gözləmir.

"Türkiyə bizim NATO-dakı müttəfiqimizdir" - C.Kirbi vurğulayıb.

**Prezidentlə Pentaqon rəsmisinin açıqlamaları arasımdakı ziddiyət diqqət çəkir. Politoloq Sədrəddin Soltan isə "Şərq"ə açıqlamasında burada təəccüblü məqamın olmadığını dedi:** "Sözügedən bəyanat ABŞ-la Türkiyənin NATO daxilindəki əməkdaşlığına təsir etməməlidir. Çünki hüquqi əsas daşımır. Həmin açıqlama sadəcə ermənilərin "başını sığallamaq" və seçkiqabağı vədini yerinə yetirmək üçündür. Bu, Baydenin şəxsi fikridir və ABŞ dövlətinin "erməni soyqırımını" tanıması kimi başa düşülməməlidir. Nəzərə almaq lazımdır ki, Türkiyə Baydenlə yox, ABŞ-la müttəfiqdir. Və NATO-nun üzvü olan Bayden deyil, ABŞ dövlətidir".

**Kənan**



## Tarixi təhrif etmək erməni ekstremistlərini daha da cəsarətləndirir

### Türkiyə PA-nın rəsmisi Los-Ancelesdə Azərbaycan bayrağının yandırılmasını qınayıb

**"ABŞ-da bir qrup ekstremist erməni tərəfindən Azərbaycan bayrağına bürüdülmüş müqəvvanın asılaraq edam edilməsinin sevinclə qarşılanması və azərbaycanlıların açıq-aşkar təhdid olunduğu nümayişin keçirilməsi aparılan təşviqatın nəticəsidir".**

"Report" xəbər verir ki, bunu Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəisi Fəxrəddin Altun tvitterdə yazıb.

"1982-ci ildə Türkiyənin Los-Ancelesdəki baş konsulunu şəhid edən erməni terrorçu Hampinq Sasunyan mart ayında sərbəst buraxılıb. Bu qatillərin cəzasız qalmasının sadəcə yeni nəsil ekstremistlərin tərəfdarlarının cəsarətləndirilməsinə xidmət edəcəyi barədə xərəbdarlıq etmişdik.

Tarixi təhrif etmək ABŞ-da yaşayan azərbaycanlıları təhdid edən erməni ekstremistlərini daha da cəsarətləndirir. Bu vəziyyətdən narahatıq. Bütün təhdidlərə qarşı Azərbaycanın yanında olduğumuzu bildirir, ABŞ rəhbərliyini lazım olan tədbirləri görməyə çağırırıq. Mayın 1-də Los-Ancelesdə erməni terrorçular tərəfindən şəhid edilən diplomatlarımızla bağlı sərgimiz açılacaq", - o vurğulayıb.

# İslahatlar daha da sürətlənəcək

### Bütün sahələrdə rəqəmsal transformasiyanın sürətləndirilməsi və koordinasiyası mühüm amildir



*Prezident İlham Əliyev Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında fərman imzalayıb. Müasir dövrdə telekommunikasiya texnologiyaları cəmiyyətin bütün sahələrinə ciddi nüfuz edərək, inkişaf üçün geniş imkanlar yaradıb.*

Qabaqcıl təcrübələrdə keyfiyyətli, təhlükəsiz və səmərəli rəqəmsal transformasiya, eləcə də bu sahədə resurslardan effektiv istifadə innovasiyaların inkişafında hərəkətverici qüvvə hesab olunur. Ölkələr rəqəmsal xidmətlərin genişləndirilməsi və elektron hökumətin inkişafı vasitəsilə səmərəliliyin və şəffaflığın artırılmasına nail olublar.

**Məsələyə aydınlıq gətirən Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Şərq"ə açıqlamasında vurğulayıb ki, ölkədə bütün sahələrdə rəqəmsal transformasiyanın sürətləndirilməsi mühümdür.** O qeyd edib ki, koordinasiya baxımından imzalanan fərman kifayət qədər mühüm əhəmiyyət kəsb edir: "Prezidentin rəqəmsal transformasiya ilə bağlı imzaladığı fərmanla Nazirlər Kabineti 4 ay müddətində Konsepsiyanı hazırlamalı və onu Prezidentə təqdim etməlidir. Ümumiyyətlə, ölkədə bütün sahələrdə rəqəmsal transformasiyanın sürətləndirilməsi və koordinasiya baxımından fərman kifayət qədər mühüm əhəmiyyət kəsb edir".

Ekspert vurğulayıb ki, ölkədə bir çox istiqamətlərdə rəqəmsallaşma prosesləri getsə də koordinasiyada problemlərin olduğu görünürdü: "Adicə dayanıqlı infrastrukturla bağlı məsələlərdə, "Ağıllı şəhər" və "Ağıllı kənd" məsələlərində belə bir problemin olması aşkar hiss olunurdu və işləri ləngidirdi. Maraqlı məqamlardan biri ondan ibarətdir ki, hökumət ölkənin rəqəmsal transformasiyası prosesində "Aztelekom", "Baktelecom", "Azərkosmos" və "Azərpoçt" kimi nəhəg operatorları NRYTN tabeliyində görmək istəyib. Bundan öncə isə bu qurumların holdinqin idarəetməsinə verilməsi nəzərdə tutulurdu. Düşünürəm ki, bu, sonda nazirliyin kommersiya səlahiyyətlərini xeyli gücləndirə bilər. Bu isə sektorda rəqabətlə bağlı ciddi problemlər yarada bilər. Güman etmək olar ki, hökumət növbəti mərhələdə tənzimləmə məsələləri ilə bağlı da struktur dəyişiklikləri nəzərdə tutur. Düşünürəm ki, əgər sektorda uzun müddətdən bəri gözlənilən müstəqil tənzimləyici qurum formalaşarsa, yəni Nazirliyin tənzimləyici funksiyası yeni formalaşdırılacaq ayrı bir dövlət qurumuna verilərsə, sektorda islahatlar daha da sürətlənəcək. Həmçinin yuxarıda qeyd olunan dəyişikliklər xeyli faydalı olacaq".

**Aynurə Pənahqızı**



# BALoğlanı itirdik

## Əməkdar artist televiziyalardan narazı köçdü

Əməkdar artist Baloğlan Əşrəfov dünyadan köçdü. Fəqət, televiziyalardan narazı köçdü. Deyəcəklər ki, indiyə qədər televiziyalar Baloğlan Əşrəfov üçün doğma idi, sanki öz evi idi, dəvət etməyəndə inciyirdi (bəlkə də - red.), proqramlara can-başla gəlirdi, nə oldu? İndi "pis" olduq?! Bu mübahisəni tərəflərə buraxaq. Bir tərəf haqq, digərləri hələ ki, nahaq dünyadadı. Amma ortada hazırkı durum üçün çox ciddi ittiham olan məsələ var; Baloğlan Əşrəfov koronavirusa yoluxmuşdu. Və yoluxmasının əsas səbəbkarı kimi televiziyaları göstərirdi. Əməkdar artist "Axşam.az" a belə bir açıqlama vermişdi:

"Başlanğıcda Covid-19-u ağır keçirdim. Səhhətimlə bağlı çoxlu problemlərim var idi. Tənginəfəs olurdum. Hazırda müalicəm davam edir. Amma ümid edirəm ki, tezliklə yaxşılaşacam. Evdəkilərdən kimsə yoluxmayıb hələ ki... Mən də otağımda təcrid olunmuş vəziyyətdə müalicə alıram". Sonra isə sənətçi televiziya kanallarının müğənnilərin səhhətindən xəbəri olmadan efirə dəvət etmələrini qınamışdı. Və məhz bu səbəbdən yoluxanların sayının daha da artdığını demişdi:

"Telekanallarda təbliğat aparmaq lazımdır. Verilişlərə müğənnilərin hamısını çağırırlar. Bilmirlər hansı xəstədir, hansı sağlamdır. Hər kəsə eyni mikrofonu verirlər. Hamı bir mikrofondan istifadə edir. Çöldə maskalı gəzirlər, amma içəridə maskasız. Ona görə də təbliğat aparmaq lazımdır. Elə müğənnilər var ki, ola bilər virusa yoluxub: ya özü bilmir, ya bilərəkdən gizlədir. Onun mikrofonundan mən də istifadə edirəm, başqası da. Nəticədə mən də yoluxuram. Buna görə də nəzarət etmək lazımdır".

**Mərhum sənətkarın irad bildirdiyi məqama hələ pandemiyanın ilk vaxtlarında "Şərq" diqqət etmişdi və efirdə yayımlanan proqramlar zamanı, aparıcıların, dəvət edilmiş qonaqların, mütəxəssislərin tibbi maskadan istifadə etməsinin zəruriliyini vurğulamışdıq. İlk vaxtlarda bəzi telekanallar buna əməl edirdi.** Hətta müğənnilər bər-bəzəkli maska yarışına da girişmişdilər. Nümunəsi, Xatirə İslamın daş-qaşlı maskada efirə çıxması. Tok-şoularda da dəvət edilənlər tibbi maskada olurdular. Lakin qısa zamanda bu qaydalar pozuldu. Karantin qaydaları görməzdən gəlindi. Mərhum sənətkarın dediyi kimi, dəvət edilənlərin studiyada bir-birinə yaxın məsafədə, həm də tibbi maskasız əyləşməsi, proqramın gedişində eyni mikrofondan istifadə halları artdı. Hazırda da vəziyyət belədir. İradlara qarşı tv-lərin arqumenti bu olur ki, dəvət olunanların TV binasına girişdə hərarətləri yoxlanır, dezinfeksiyaedici məhluldan istifadə edilir. Lakin rəhmətlik Baloğlan Əşrəfovun dediyi kimi, dəvət edilənlərin hansının yoluxmuş, hansının xəstə, hansının sağlam olduğunu təkcə hərarətölçənlə müəyyənləşdirmək mümkün deyil. Qonaqların "xəstə deyiləm", sözünə də nə dərəcədə etibar etmək olar?! Deməli, tv-lər yenə də köhnə şakərlərindən əl çəkmir. Xəstə, sağlam, kim necədir bilmədən, ehtiyat da etmədən, proqrama dəvət edirlər. Heç koronavirus da onları proqramda pul qazanmaq niyyətindən çəkindirə bilmir. Amma hazırda qarşımızda səhiyyə sistemi, əczaçılıq sənayesi dünyaya örnək olan böyük Hindistanın acı mənzərəsi dayanıb. Bu ölkədə, yəqin ki, sanitar-karantin qaydalarına doğru-düzgün əməl edilmədiyindən bu gün koronavirusdan vəfat edənləri basdırmağa yer belə tapmırlar. Bu gün qazandığımız pullar sabah virusa yoluxduqda bizə kömək edə bilməyəcək. Pandemiya dövründə iştəhanı azacıq da olsa basdırmada fayda var.

### Qulu Məhərrəmli: "Pandemiya şəraitində televiziyalar xüsusi iş rejimində çalışmalıdır, studiya, texniki avadanlıqlar tez-tez dezinfeksiya edilməlidir. Fərdi mikrofanlar olmalıdır"



**Məsələ ilə bağlı fikirlərini "Şərq"ə bildirən Əməkdar jurnalist, Bakı Dövlət Universitetinin professoru, teletənqidçi Qulu Məhərrəmli qeyd etdi ki, pandemiya şəraitində televiziyalar xüsusi iş rejimində çalışmalıdır:**

- Studiya, texniki avadanlıqlar tez-tez dezinfeksiya edilməlidir. Fərdi mikrofanlar olmalıdır. Bəzən məhdud texniki imkanlar bunun təmin edilməməsinə səbəb ola bilər. Lakin tv-lər çalışmalıdır ki, fərdi mikrofonlardan istifadə edilsin. Virusun yayılma sürəti, əşyaların üzərində qalma müddəti də var. Efir zamanı bu məqamlara, şərtlərə diqqət edilməli və karantin qaydalarına əməl olunmalıdır. Mən dəvət olunduğum proqramlarda bu məqamlara diqqət edildiyini görmüşəm. Amma ola bilər ki, hansısa tv-də, hansısa proqram yayımı zamanı qaydalara riayət edilməsin, yoluxma riski nəzərə alınmasın. Əlbəttə, belə hallar insanların fəlakətinə gətirib çıxara bilər. Çünki televiziya canlı orqanizmdir, burda hər gün yüzlərlə insan bir-biri ilə ünsiyyətdədir, təmasdadır.

*Q.Məhərrəmli qeyd etdi ki, efirdə, yayım zamanı aparıcıların, qonaqların, proqram iştirakçılarının tibbi maskalardan istifadəsi görüntü baxımından xoşagəlməz ola bilər. Lakin yenə də vəziyyət şəraitə uyğun müəyyənləşməlidir:*

- Əgər aparıcı ilə proqram iştirakçısı arasında 1,5 - 2 metr ara məsafəsi varsa, tibbi maskasız yayım mümkündür. Yox əgər, tok-şoudursa və studiyada çox sayda iştirakçı varsa, ara məsafə qısadırsa, iştirakçılar, yaxud qonaqlar bir-birinə yaxın məsafədə əyləşibsə, bu zaman tibbi maskalardan istifadə edilməlidir. Elə etməyək ki, bu gün proqrama dəvət edilən qonağın sabah virusa yoluxduğu aşkarlansın. İctimaiyyətə, topluma hansısa vacib məsələ barəsində məlumat vermək, ya da tamaşaçını əyləndirmək məqsədilə efirə dəvət edilən qonağın həyatına bais olmasınlar.

**Məlahət Rzayeva**

# Artıq gecikmək olmaz...

## Orta məktəblərdə dinin tədris olunması vacib məsələdir

Azərbaycanda orta məktəblərdə dinin tədris olunması müzakirə edilir. Milli Məclisin ötən dəfə keçirilən iclasında bu məsələ yenidən gündəmə gəlib. Deputat Etibar Əliyev bildirib ki, ölkəmizin orta məktəblərində dinin tədris olunması üçün müzakirə aparılır. Deputat vurğulayıb ki, din İngiltərədə dövlət məktəblərində seçməli dərsdir:

"Təhsil sistemi güclü olan Finlandiyada isə din dərsi məcburidir. Türkiyədə din dərsi dövlət və özəl məktəblərdə keçirilir. Ölkədə daha çox dominant din olan islam dini ilə bağlı məlumatlar verilir. Ölkəmizdə bu sahədə ciddi boşluqlar mövcuddur. Bölgələrdə dini düşüncələr yalnız erkən nikah, məktəblərdən uşaqların alınması şəklindədir. Ciddi mütəxəssislər tərəfindən "Dinlər tarixi və ixlas bilgisi" adlı kitab hazırlamaq lazımdır. Əks təqdirdə bu boşluq daha da genişlənəcək və gənclərimiz zərərli dini düşüncələrə gedəcəklər".

**Deputat Ceyhun Məmmədov da orta məktəblərdə şagirdlərə dini təhsil verilməsini dəstəkləyib.** O qeyd edib ki, ekstremizm və radikallıqla səmərəli mübarizə üçün güclü dövlətin olması vacib şərtdir. Bu açıqlamalar orta məktəblərdə din dərslərinin tədrisinin hansı sinifdən başlanacağı və hansı formada tədris olunacağı ilə bağlı suallar yaradıb.



**İlahiyyatçı Tural İrfan "Şərq"ə açıqlamasında vurğulayıb ki, din alimləri uzun illərdir orta məktəblərdə dinin tədris edilməsini təklif edirlər. Ekspert bununla bağlı dəfələrlə proqram hazırlandığını da deyib:** "Bu çox vacibdir. Avropa ölkələrində belə islam dini haqqında məlumat verilirsə, Azərbaycanda bunun hələ olmaması təəccüblüdür. Kommunist təfəkkürdə olanlar buna qarşı çıxırlar. Heç kəs demir ki, orta məktəblərdə şagirdlər dinə təşviq edilsin, din hansısa formada təbliğ olunsun. Sadəcə deyirik ki, islam dini ilə bağlı təməl bilgilər verilsin. Uşaqlarımız ata-baba dinləri haqda məlumata sahib olsunlar. Dinlərə inam hər bir insanda fitri ehtiyacdır. Bu reallığı qəbul etmək lazımdır. Əgər biz uşaq və yeniyetmələrdə həmin ehtiyacı boş buraxsaq, o boşluğun yerini xurafat, radikal inanclar dolduracaq".

**T.İrfan qeyd edib ki, əslində dini radikalizmin, xurafatın əsl səbəblərindən biri vaxtında uşaqların din haqda maarifləndirilməməsidir:** "Dinlərin təməl bilgilərinin orta məktəblərdə tədrisi çox gecikib. Artıq beyinlər zəhərlənib, xeyli adam əqidəsini azıb. Gənclərimiz zay olub. Ona görə də daha artıq gecikmədən bunu həyata keçirmək vacibdir. Əgər din orta məktəblərdə tədris olunarsa, gənclər biləcəklər ki, həqiqi din nədir və bu dində nə var, nə yox. O zaman xurafatın nə olduğunu da biləcəklər. Tədris proqramı hazırlanarkən xarici dini meyillərə yer verilsə, iş ağır olacaq. Odur ki, sadəcə, qardaş Türkiyə üsulundan istifadə edilməlidir. Çünki dinimiz də, dilimiz kimi eyni olan qardaş Türkiyənin bu sahədə min illik təcrübəsi var".

**İsmayıl Qocayev**

# Nə baş verir?

## Bir gündə cəmi 365 nəfər peyvənd olub



"Ölkədə vaksinləmə prosesi çox ləng gedir". Bunu Milli Məclisin dünənki iclasında deputat Qüdrət Həsənquliyev deyib. Millət vəkili bildirib ki, ötən gün Prezident İlham Əliyev beynəlxalq tribunada çıxış etdi və koronavirus pandemiyası ilə mübarizə tədbirlərindən, peyvəndlərin bölgüsündəki ədalətsizlikdən danışdı:

### Millət vəkilləri narazıdır, vaksinləşmə prosesi çox ləng gedir

"Dünyanın inkişaf etmiş ölkələri vaksinlərin hazırlanması formulunu açıqlamır. Bundan pul qazanmaq istəyən dövlətlər, insanlar var. Bu, təəssüf doğurur. Vaksin istehsal edən ölkələr formulu açıqlamaqla da pul qazana bilər. Azərbaycan bununla bağlı beynəlxalq qurumlara müraciət etsə, yaxşı olar. Mətbuatdan oxuduğum məlumata görə, dünən 365 nəfər vaksin olub. Onun 3 nəfəri isə ikinci mərhələdə vaksin olunandı. Bu məsələni diqqətdə saxlamalıyıq. İnsanlar vaksin olunmaq istəmir, yoxsa yetərli vaksin yoxur? Nədir bunun səbəbi? Yaş həddini bəlkə aşağı salmalıyıq. Hələ vaksinlərlə bağlı ilkin iş aparıldığı dövrlərdə səhiyyə qurumları deyirdi ki, dünyanın aparıcı ölkələri ilə vaksin almaqla bağlı danışıqlar aparır. Amma sonra gördük ki, bu, belə deyilmiş. Yaxşı olardı ki, Milli Məclisdə bununla bağlı dinləmə keçirilsin".

**Deputat Fəzail Ağamalı da həmkarı ilə razılaşıb və qeyd edib ki, hazırda ölkədə vaksinləmə prosesi çox ləng gedir:** "Vaksinləmə prosesi çox aktual məsələdir. İnsanlar arasında vaksinlə bağlı maarifləndirmə işini sürətləndirmək lazımdır. Medianın üzərinə bu sahədə böyük yük düşür. Xüsusən, televiziyalar əhalinin bilgiləndirilməsi üçün ciddi səy göstərməlidir. Müvafiq dövlət qurumları da bu məsələdə məsuliyyətli olmalıdır. Mən hesab edirəm ki, vaksinin vurulması məcburi olmalıdır. Elə etməliyik ki, böyük əksəriyyət vaksinləmə prosesindən keçsin".

**Millət vəkili Əhliman Əmiraslanov isə bildirib ki, heç bir ölkədə vaksinləmə məcburi deyil, bu proses könüllü həyata keçirilir.**

Parlament sədri Sahibə Qafarova da vaksinləmənin aktual məsələ olduğunu deyib. Sədr vurğulayıb ki, deputatlar bu işdə fəal olmalıdır: "Hər bir deputat seçildiyi dairədə görüşlər zamanı vaksinlə, vaksinasiyanın vacibliyi ilə bağlı söhbətlər aparmalıdır". Sədr bildirib ki, müvafiq qurumlar da bu məsələyə çox ciddi yanaşmalıdır.

**İsmayıl**

## 1307 nəfər yoluxub, 27 nəfər vəfat edib

### Daha 2 383 nəfər koronavirusdan sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1307 yeni yoluxma faktı qeydə alınıb, 2383 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 27 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 315 119 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 282 786 nəfər müalicə olunaraq sağalıb, 4 429 nəfər vəfat edib, aktiv xəstə sayı 27 904 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 649, ötən müddət ərzində isə ümumilikdə 3 206 917 test aparılıb.*

## Bakının mərkəzində iki ağac aşdı, avtomobilə ziyan dəydi



**Bakıda güclü külək irigövdəli ağacları aşırıb. Trend-in məlumatına görə, hadisə Səbail və Yasamal rayonlarında qeydə alınıb.**

Neftçilər prospektində aşan ağac xoşbəxtlikdən ətrafa ziyan vurmayıb, İnşaatçılar prospektində isə, ağac minik avtomobilinin üzərinə aşıb.

Nəticədə "Reno" markalı avtomobilə ziyan dəyib, hadisə yerinə polis əməkdaşları cəlb olunublar.



# "Heç kim virusla zarafat eləməsin"

### Rəşid Mahmudov: "Əksər xəstəxanalarda vəziyyət qaneedici deyil, təchizat zəifdir, dərman tapılmır"

**"Koronavirusa yoluxandan sonra ev şəraitində müalicə almaq istədim. Çünki həyat yoldaşım həkimdir. Amma sonra vəziyyətim pisləşdi".**

Bunu "Şərq TV"də çıxış zamanı tibb elmləri namizədi Rəşid Mahmudov deyib. Həkim bildirib ki, halı pisləşəndən sonra "Caspian" hospitalına gətirilib: "Məlum oldu ki, ağciyərimin biri 35 faiz, digəri isə 45 faiz qidalanması yoxdur. Məni tez aparata qoşdular. Sonra məsləhət bildilər ki, məni Gömrük Hospitalına aparsınlar. Saturasiya (qanda oksigenin miqdarı - red) normal adamda 90-dan yuxarı olmalıdır, məndə 5-ə düşmüşdü. Mənim oradakılara can borcum var. Düzdür, ölüm haqdır, mən ölümə də yüksəkdən baxıram, amma çalışmalıyıq ki, koronavirusdan az itki verməklə çıxaq. Heç kim virusla zarafat eləməsin. Mən də yoluxmuşam, bilirəm, çox ağır xəstəlikdir. Bu xəstəlikdən ölənlər şəkəri və qan təzyiqi olanlardır. Əksər xəstəxanalarda vəziyyət qaneedici deyil, təchizat zəifdir, dərman tapılmır. Preparatlar çox bahadır, yüz manata dərman olarmı? Ay ərzində istifadə olunan dərmanlar var. Görün, bir insana müalicə üçün nə qədər pul lazımdır".

*R.Mahmudov vurğulayıb ki, Azərbaycanda virusologiya elmi ilə məşğul olan peşəkar alimlər, infeksionistlər var:* "Amma heç birinə efirə çıxmağa, virusla bağlı danışmağa imkan vermirlər. Suallara onlar cavab verməlidir. Yaxşı həkimlərimiz çoxdur. Əfsuslar olsun ki, hər sahədə, peşədə zəif, qabiliyyətsiz adamlar da var. Rüşvət alan, korrupsiyaya bulaşmış həkimlərə nifrət edirəm. Bir həkim ki, insanın sağlamlığından sui-istifadə edərək pul qazanmaq istəyir, bu, insanlıqdan kənardır. Olmaz belə şey".

**İsmayıl**

# Başlıbel qətliamı...

## 12 nəfərin meyitlərinin qalıqları aşkarlanıb

### Nəsiman Yaqublu: "1967-ci ildə ortada sübut-dəlil olmadığı halda iki nəfər azərbaycanlını məhkəmə prosesindən çıxarıb yandırdılar"



**"Ən gənci 12 yaş. Ən yaşlısı 95 yaş. Nə uşaq tanıdılar, nə də qoca. 1993-cü ilin aprel ayında Ermənistan Silahlı Qüvvələri tərəfindən Kəlbəcər rayonunun Başlıbel kəndində sığındıqları evdə qətlə yetirilən 12 nəfərin meyitlərinin qalıqları aşkar edilib".**

Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin mətbut xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli yazıb.

Deməli, dünya ictimaiyyəti, o cümlədən ABŞ, belə demək mümkünsə, gözündəki eynəyin ləkələrini təmizləməli və planetdə baş verənləri olduğu kimi - şəffaf görməlidir.

### "İşə beynəlxalq mütəxəssislər, hüquqşünaslar cəlb edilməlidir. Təəssüf ki, biz bu məsələdə gecikirik"



**BDU-nun Jurnalistika fakültəsinin professoru, tarixçi-alim Nəsiman Yaqublu da belə düşünür. Onun fikrincə, biz informasiya təxribatlarına qarşı əks-arqumentlərlə cavab verməliyik:**

"Birinci Qarabağ müharibəsindəki hadisələr kifayət qədər araşdırılmayıb. Həmin qətliamlar yalnız Xocalı faciəsi ilə bitmir. Digər bölgələrdə də analoji hadisələr baş verib. İnsanlar diri-diri yandırılıb. Əslində bu cinayətlər savaşdan çox əvvəl başlayıb. Məsələn, 1967-ci ildə ortada sübut-dəlil olmadığı halda iki nəfər azərbaycanlını məhkəmə prosesindən çıxarıb yandırdılar. Odur ki, ermənilərin Başlıbel kəndində də cinayətlər törətdiyinə inanıram. Çünki həmin toplum elə bunun üçün yaranıb".

**N.Yaqublu, həmçinin bildirdi ki, baş verən cinayətlər arxivləşdirilməlidir:**

"Həmin olaylar mütləq sənədləşməli, yaşayan şahidlərin ifadələri alınmalıdır. Məsələn, 1918-1920-ci illərdə fövqəladə istintaq komissiyası yaradılmış və 5 mindən çox şahidin ifadəsi alınmışdı. Həmin ifadələr sonradan hüquqi sənədə çevrildi. Biz yenə elə etməliyik. Tarixi həqiqətlər məişət səviyyəsindəki dialoqlardan çıxmalı, beynəlxalq hüquqi sənəd statusu almalıdır. İşə beynəlxalq mütəxəssislər, hüquqşünaslar cəlb edilməlidir. Təəssüf ki, biz bu məsələdə gecikirik".

**Kənan**

# Gürcüstan turizmdən asılı ölkədir

*Pandemiyaya görə səfərlər azaldı, ona görə lari dəyərdən düşür*



Gürcüstan Milli Bankı ABŞ dollarının məzənnəsini 3,4534 lariyə bərabər müəyyən edib ki, bu da ötən il martın 27-dən bəri ən yüksək həddir. Həmin tarixdə qonşu ölkədə Amerika valyutasının məzənnəsi 3,4842 lariyə bərabər olub.

Gürcüstanın Maliyyə naziri Laşa Xutsişvili bildirib ki, larinin dəyərdən düşməsi əsasən qonşu Türkiyənin milli valyutası - lirənin ucuzlaşması ilə bağlıdır: "Türkiyədə bir gündə lirə 15-16 faiz ucuzlaşıb. Bu, Gürcüstana təsirsiz ötüşə bilməz. Milli Bank inflyasiyanın hədəf həddinə yaxın olması üçün qiymət sabitliyinə yönəlmiş fəal iş aparır".

**Mövzuya münasibət bildirən iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, gürcü larisinin dəyərdən düşməsinin bir çox səbəbləri var. İqtisadçı qeyd edib ki, səbəblər arasında təbii ki, qonşu ölkələrdə milli valyutaların dəyərdən düşməsinin təsiri də var:** "Larinin və türk lirəsinin dəyərdən düşməsinin həm psixoloji, həm də iqtisadi təsirləri mövcuddur. Bildiyimiz kimi, Gürcüstanın ən böyük ticarət tərəfdaşlarından biri Türkiyədir. Amma təbii ki, larinin dəyərdən düşməsinin əsas səbəbi lirənin ucuzlaşması deyil. Qeyd edim ki, Gürcüstanın turizmdən çox ciddi asılılığı var idi. Valyuta gəlirlərinin böyük əksəriyyətini məhz turizm gəlirləri, turizm valyutası təşkil edirdi".

*İqtisadçı-ekspert vurğulayıb ki, turizm sektorunun bütün dünyada tamamilə sıradan çıxması həmin ölkələrə daxil olan valyutanın həcminin bir neçə dəfə azalmasına səbəb olub:* "Bir ildən çoxdur ki, sərhədlər qapalıdır. Turizm sektorunun həm bütün dünyada, həmçinin Gürcüstanda tamamilə sıradan çıxması bu ölkəyə daxil olan valyutanın həcminin bir neçə dəfə azalmasına səbəb olur. Ancaq ölkənin valyuta ehtiyacı var. Çünki Gürcüstan bir çox hallarda idxaldan asılı ölkədir. Ona görə də idxala valyutanın lazım olması və ölkəyə daxil olan valyutanın həcminin kəskin azalması larinin ucuzlaşmasına əsas səbəbdir. Gürcüstan larisinin dəyərdən düşməsinin əsas səbəbi xaricilərin, yəni turistlərin ölkəyə gətirdiyi valyutanın dəfələrlə azalmasıdır. Pandemiyadan öncəki ildə, yəni 2019-cu ildə Gürcüstan ərazisində təqribən 3,5-4 milyard dollara yaxın turistlər pul xərcləmişdilər. Bu da larinin məzənnəsində mühüm rol oynayıb. İndi o vəsait yoxdur və dəfələrlə azalıb. Bu da larinin dəyərdən düşməsində mühüm rol oynayır".

**Aynurə Pənahqızı**

## 2 hərbçi yaralanıb

Qarabağda minaya düşən Rusiya sülhməramlılarının vəziyyəti açıqlanıb



**Azərbaycanın Qarabağ bölgəsində Rusiya sülhməramlı hərbçilərini daşıyan avtomobilin minaya düşərək partlaması nəticəsində 2 hərbçi yaralanıb.**

"Report" xəbər verir ki, məlumatı "Aysor" yayıb. "Avtomobil tank əleyhinə minaya düşüb. İki hərbçi yaralanıb. Hazırda onlar tibbi mərkəzə yerləşdirilib", - məlumatda vurğulanıb. Bildirilib ki, hərbçilərin vəziyyəti yaxşıdır.

## Bayden Putinlə görüş haqqında suala cavab verə bilmədi



**ABŞ prezidenti Co Bayden Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə görüş üçün ilkin şərtləri irəli sürüb-sürməyəcəyi barədə suala cavab verməkdən imtina edib.**

Bu barədə "Report" xarici mətbuata istinadən xəbər verir.

"Mən bunu başqa gün müzakirə edəcəm", - deyə Bayden jurnalistlərin bununla bağlı sualına cavabında bildirib.

*Qeyd edək ki, daha əvvəl ABŞ tərəfinin təşəbbüsü ilə Co Baydenlə Vladimir Putin arasında telefon danışığı olub. Kreml iyunun 15-16-da Putinlə Baydenin görüşəcəyi barədə məlumatı təsdiqləməyib. Bununla yanaşı qeyd edilir ki, ölkə liderləri yayda görüşə bilərlər, lakin dəqiq tarix hələlik yoxdur.*



## Putinlə Makron arasında telefon danışığı olub

**Rusiya Prezidenti Vladimir Putinlə fransalı həmkarı Emmanuel Makron arasında telefon danışığı olub.**

Bu barədə "Şərq" TASS-a istinadən xəbər verir.

Bildirilir ki, tərəflər Ukraynanın cənub-şərqində gərginliyin artmasından narahatlıqlarını ifadə ediblər. Dövlət başçıları iki ölkə arasında "Normandiya formatı"na uyğun əməkdaşlıq qərarını təsdiqləyiblər.

**Kənan**

## İsrail hərbçiləri Livandan ölkənin hava məkanına daxil olan dronu vurublar



**İsrail Müdafiə Qüvvələri hərbi qulluqçuları Livandan ölkənin hava məkanına daxil olan pilotsuz uçuş aparatını vurublar.**

Trend-in məlumatına görə, bu barədə İsrail ordusunun mətbuat xidməti bildirib.

Məlumatda qeyd olunub: "Bir müddət əvvəl İsrail hərbi qulluqçuları "mavi xəttin" şərq hissəsində Livandan İsrailin hava məkanına daxil olan pilotsuz uçuş aparatını vurublar".

# Rusiyanın əvvəlki gücündən əsər-əlamət qalmayıb

Rusiya Prezidenti Vladimir Putin ehtiyatda olan hərbçilərin xidmətə çağırılması barədə sərəncam imzalayıb. Qərara əsasən, hökumət və regional rəhbərlik ehtiyatda olan şəxslərin çağırılması və hərbi təlimlərə cəlb olunması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etməlidirlər.



"Böyük hərbi təlimlər, raket sınaqları, səfərbərlik ancaq süni güc göstəricisindən başqa bir şey deyil"

**Putinin bu addımını "Şərq"ə şərh edən VHP-nin Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli deyib ki, Rusiyanın illərdir cavabsız imperialist siyasəti dalana dirənməkdədir.** S.Əsədli qeyd edib ki, Avropa və ABŞ, eyni zamanda dünyanın sülhpərvər ictimaiyyəti şimal nəhənginin siyasətinin dünyada barışa ciddi təhlükə olduğunun fərqindədir: "Ukrayna, Moldova, Gürcüstan ərazilərində aparılan işğalçılıq artıq dözülməz həddə çatıb. Dünya bu siyasətə qarşı təpkilər verməkdə, addımlar atmaqdadır. Bu isə özünü məğlubedilməz, etdiyi hərəkətlərin sorğulanmamasına vərdiş etmiş Kremli əsəbiləşdirir".

Politoloq bildirib ki, Rusiyanın bundan sonra hardasa hərbi əməliyyatlar keçirməsi inandırıcı deyil: "Böyük hərbi təlimlər, raket sınaqları və qeyd etdiyiniz səfərbərlik ancaq süni güc göstəricisindən başqa bir şey deyil. Rusiyanın monolitliyinin belə təhlükə altında olduğu bir dönəmdə belə addımlar atması gülünc görünür. Ola bilsin ki, Putin bu kimi addımlarla ətrafdakı kiçik dövlətləri, xüsusilə keçmiş sovet respublikalarını xof altında saxlamaq niyyəti güdür. Amma həm geopolitik durum, həm dünyanın Rusiyaya qarşı münasibəti onu göstərir ki, bunlar uğursuz cəhdlərdir".

**Aynurə Pənahqızı**



## Daha 3 nəfər məhv edilib

Türkiyə ordusunun İraqda zərərsizləşdirdiyi terrorçuların sayı 37-yə çatıb

**Türkiyə Hərbi Hava Qüvvələrinin İraqın şimalında terrorçuların gizləndiyi ərazilərə endirdiyi zərbələr nəticəsində PKK qruplaşmasının daha 3 terrorçusu məhv edilib.**

"Report" xəbər verir ki, məlumatı Türkiyə Milli Müdafiə Nazirliyi yayıb.

Bildirilib ki, İraqın şimalındakı Metina və Avaşin Basyan bölgələrində keçirilən "Pençe-Şimşek" və "Pençe-Yıldırım" əməliyyatları nəticəsində zərərsizləşdirilən PKK terrorçularının sayı 37-yə çatıb.

Bölgədə aparılan axtarış-əməliyyat tədbirləri zamanı terrorçulara məxsus silah, sursat və partlayıcı qurğular aşkarlanaraq məhv edilib.

*Xatırladaq ki, "Pençe-Şimşek" və "Pençe-Yıldırım" əməliyyatları aprelin 24-də başlayıb.*

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Fransa yenə mövqeyini dəyişməyib

## Bu ölkə hər addımda ermənipərəst mövqeyini ortaya qoyur

ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi Fransa yenidən fəallaşıb. Təbii olaraq rəsmi Parisin budəfəki canfəşanlığı da ermənilərlə bağlıdır. Məlum olduğu kimi Fransa Senatının sədri Jerar Larşenin rəhbərlik etdiyi nümayəndə Ermənistanda səfərdədir. Senatın xarici əlaqələr, müdafiə və silahlı qüvvələr komissiyasının sədri, fraksiya rəhbərləri və Ermənistan-Fransa dostluq qrupu rəhbərinin də qatıldığı geniş tərkibli nümayəndə heyəti 3 gün ərzində Yerevanda olub.

Fransızlar qondarma "erməni soyqırımı"nın ildönümü ilə bağlı tədbirlərdə də iştirak ediblər. Səfər ərəfəsində Senat sədri Jerar Larşe " ermənilər üçün belə bir ağrılı-acılı zamanda səfər etmək Fransanın Ermənistanla həmrəyliyini nümayiş etdirmək məqsədi daşıdığını" bildirib. Senat sədri deyib ki, ölkəsində nə qədər siyasi baxış müxtəlifliyi hökm sürsə də, bütövlükdə Fransa ermənilərin yanında dayanır. Larşe əlavə edib ki, rəsmi Paris ermənilərə yardım etmək üçün Minsk qrupunun, yeni həmsədrlik institutunun fəaliyyətini gücləndirməli və artıq bitmiş hesab olunan "Qarabağ münaqişəsi"nin həlli prosesinə müdaxilə etməlidir. Yerevan hökuməti fransalı qonaq üçün qondarma sərgi də hazırlayıblar. Ermənistan Xarici işlər naziri Ara Ayvazyan Fransa Senatının sədri Jerar Larşeyə sərgi barədə verdiyi məlumatları sosial şəbəkədə yayıb. Fotolardan aydın olur ki, Ayvazyan Fransa Senatının sədrini inandırmaq üçün dəridən-qabıqdan çıxır. Ara Ayvazyan Jerar Larşeni inandırmağa çalışıb ki, 161 kilsə, 600-ə yaxın xaçkar, saray, körpü və 19 minə yaxın muzey eksponatı da daxil olmaqla 1500-ə yaxın mədəniyyət məkanı "təhlükə" altındadır. Ermənilərin xisləti budur və belə bir yalançı millətlə qonşu olmağın özü təhlükədir. Üstəlik, həmişə ermənipərəst mövqeləri ilə diqqət çəkən Fransa hökumətinin bu dəfə də belə bir saxta tədbirə Senat sədri Jerar Larşeni göndərməsini anlamaq o qədər də çətin deyil.

Jerar Larşe hələ 2001-ci ildə Senat tərəfindən "erməni soyqırımı"nın tanınmasını xatırladıb. Bunu "erməni əsilli fransızların bütün çətinliklərə baxmayaraq, fransız cəmiyyətinə uğurla inteqrasiya olunmasına və töhfələr verməsinə layiqli cavab" kimi dəyərləndirib. Keçən ilin 25 noyabrında Fransa hökumətinə "Dağlıq Qarabağın müstəqilliyinin tanınmasını" təklif edən qətnaməni xatırladan sədr vurğulayıb ki, bu addım Ermənistanın etibarını doğrultmaq üçün atılıb. ATƏT, Aİ və digər beynəlxalq təşkilatların seyrçi mövqe tutması Fransa senatorlarının demək olar ki, yekdilliklə bu qətnaməni dəstəkləməsinə səbəb olub. Senat sədri Azərbaycanda saxlanan "hərbi əsirlərin" dərhal qeyd-şərtsiz qaytarılmasını və azad olunmuş ərazilərdə "erməni tarixi-mədəni irsinin məhv edilməsinə" son qoyulmasını da tələb etdiklərini bildirib. Bir sözlə, Fransa Senatının sədri 30 illik işğaldan sonra azad olunmuş ərazilərdə təkzibedilməz vəhşilik izlərini unudaraq, Azərbaycana, guya, erməni mədəni irsini məhv etməsi ilə bağlı böhtan atmaqla erməni riyakarlığına şərik çıxıb. Görünür, Larşe dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərini, eləcə də öz dövlətinin də səsvermısi ilə qəbul olunmuş BMT TŞ-nin 4 məlum qətnaməsini unudub. Həmçinin, Fransanın TŞ üzvü kimi BMT Qətnamələrinin yerinə yetirilməsi üçün məsuliyyət daşıdığını, eləcə də Minsk qrupunda həmsədr olduğunu və münaqişənin həlli üçün heç bir addım atmadığını da yaddan çıxarıb.

Senat sədrinin Həmsədrlik institutunun tərəfsizliyə və qərəzsizliyə əsaslandığını bilməməsi də təəccüb və təəssüf doğurur. Münaqişənin həlli prosesinə həmsədrlik edən bir dövlətin ali rəhbərliyinin beynəlxalq qanunlara məhəl qoymadan, saxta və yalan bəhanələr əsasında münaqişə tərəflərindən birinin işğalçılıq hərəkətlərini açıq-aşkar dəstəkləməsi siyasi əxlaqa ziddir. Fransa isə hələ 20 il öncə münaqişə tərəflərinə münasibətdə tərəfsiz mövqe tutacağına söz verərək təkidlə əldə etdiyi həmsədrlik vəzifəsindən imtina etməyi özünə rəva bilmir. Əksinə, həmsədrlik missiyasının və onunla bərabər bölgədəki münaqişənin uzadılmasına və daimi olaraq bütövlükdə Cənubi Qafqaz bölgəsini özündən asılı vəziyyətdə saxlamağa çalışır.

Milli Məclisin sədri Sahibə Qafarova Fransa Senatının sədri Jerar Larşenin Ermənistanda verdiyi qərəzli və birtərəfli açıqlamalarına kəskin reaksiya verib. Spiker vurğulayıb ki, fransalı həmkarı tərəfindən verilən bəyanatlar onun ölkəsinin Minsk qrupu həmsədri kimi üzərinə götürdüyü öhdəliklərlə qətiyyən uzlaşmır: "Senat sədri öz açıqlamalarına bir tərəfdən Minsk qrupunun fəaliyyətinin yenidən canlandırılmasına, onun işinə yeni impuls verilməsinə çağırış edir. Digər tərəfdən isə açıq ermənipərəst və anti-Azərbaycan, anti-Türkiyə mövqe nümayiş etdirir. Senat sədrinin Yerevanda təşkil edilmiş bir sərgidə gördüklərindən yola çıxaraq, Türkiyədə və "artsax"da "erməni mədəniyyətinin izləri"nin silinməsindən bəhs etməsi, sadə dillə desək, siyasi ciddiyyətdən uzaqdır". S.Qafarova xüsusilə vurğulayıb ki, əgər Fransa Senatının sədri həqiqətən tərəfsiz və ədalətli olmaq niyyəti güdmüş olsaydı, səfərini təkcə Ermənistana deyil, Azərbaycana da edərdi: "İşğaldan yenicə azad olunmuş ərazilərimizdə 30 il ərzində Ermənistan tərəfindən törədilmiş vandalizm və barbarlığı, bu gün "Qafqazın Xiroşiması" adlandırılan Ağdam şəhərini öz gözləri ilə görmüş olardı. Belə bir səfər Senat sədrinə həm də ölkəmizdə digər xalqların dininə, mədəniyyətinə, tarixinə göstərilən hörmətin şahidi olmaq imkanı verərdi. Hər şeydən əvvəl, elə məhz erməni xalqının dininə və mədəniyyətinə göstərilən hörməti, Bakının mərkəzində hələ də mövcud olan erməni kilsəsini görərdi. Bu isə ona 30 illik işğal dövründə Ermənistan tərəfindən Azərbaycan ərazilərində olan dini və mədəni abidələrin yerlə yeksan edilməsi, məscidlərimizdə inək və donuz saxlanılması ilə müqayisələr aparmaq imkanı verərdi. Lakin təəssüf edirəm ki, fransalı həmkarım belə bir addım atmaq yerinə, qərəzli və birtərəfli mövqe tutmağa üstünlük verib".

Spiker həmçinin Azərbaycan tərəfindən saxlanıldığı iddia olunan erməni əsilli hərbi əsirlər məsələsinə dair Senat sədrinin fikirlərini şərh edib: "Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, 10 noyabr Bəyanatından sonra Azərbaycan ərazisinə göndərilmiş diversant qrupunun üzvləri hərbi əsir deyil və bu cür dəyərləndirilə bilməz. Bu, ancaq bizim dediyimiz bir şey deyil, beynəlxalq hüquq da sözügedən məsələni məhz bu cür tövsif edir. Buna görə də Fransa Senatının sədri tərəfindən bu kontekstdə Azərbaycana qarşı səsləndirilən ittihamları qəbul etmir, əvəzində cənab Larşenin bu gün də mülki əhalinin və hərbiçilərin həyatlarına son qoyan, sağlamlıqlarını itirməsinə səbəb olan minalanmış ərazilər məsələsinə diqqət yetirməyə çağırırıq. Yaxşı olardı ki, Senat sədri Fransanın Minsk qrupu həmsədri olması prizmasından çıxış edərək, Ermənistanın minalanmış ərazilərin xəritələrini təqdim etməyə məcbur edəydi. Bununla da dünya birliyinin Ermənistana bu istiqamətdə verdiyi çağırışlara dəstək vermiş olardı".

"Azərbaycan ictimai rəyində Fransanın ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi tərəfsizliyinə çox ciddi və əsaslı şübhələr mövcuddur"

**Parlamentin Azərbaycan-Fransa Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov da bildirib ki, Fransa Senatı sədrinin Ermənistanda verdiyi açıqlamalar bu ölkəyə Azərbaycan xalqının onsuz da kövrək olan etimadını daha da zəiflədir.** Bu, bir daha Fransanın ATƏT-in Minsk qrupunun həmsədri kimi tərəfsiz olmadığını təsdiq edir: "Fransa Senatının sədri Jerar Larşenin söylədiyi fikirlər region xalqları arasında qarşılıqlı dialoq mühitinin formalaşmasına, davamlı sülh və sabitlik formulunun tapılması səylərinə ciddi zərbədir. Fransa hökuməti və parlamentinin Vətən müharibəsi günlərində nümayiş etdirdiyi qeyri-obyektiv, ədalətsiz və birtərəfli mövqe Azərbaycan xalqının yaddaşında dərin iz buraxıb. Müharibədən sonra münasibətlərin əvvəlki ruhunun qaytarılmasına ehtiyac duyulduğu bir vaxtda bu cür bəyanatların səslənməsi əlaqələrin gələcəyi haqqında nikbin düşünməyə əsas vermir. Azərbaycan ictimai rəyində Fransanın ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi tərəfsizliyinə çox ciddi və əsaslı şübhələr mövcuddur. Jerar Larşenin son açıqlaması bu şübhələrin daha da dərinləşməsinə xidmət edir". Deputat münaqişənin artıq başa çatdığını, bir çox ölkələrin postkonflikt dövrünün reallıqlarını düzgün qiymətləndirməli olduğunu vurğulayıb: "Fransa doğrudanmı regionda sülhün bərqərar olmasından narahatdır? Bu narahatlığın səbəbi nədir?".

Bu arada Rusiya Prezidenti Vladimir Putinlə fransalı həmkarı Emmanuel Makron arasında telefon danışığı olub. Kremlin mətbuat xidmətinin məlumatına görə, ölkə başçıları telefon danışığı zamanı Qarabağdakı son vəziyyəti müzakirə edib. Bundan əlavə, gündəlikdə olan digər aktual mövzular ətrafında fikir mübadiləsi aparılıb.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Rusiya Qarabağda sülhməramlı fəaliyyətindən əlavə prosesə Fransanı da cəlb etmək üçün fəaliyyətə başlayıb.** Onun sözlərinə görə, Rusiya masada tək qaldığı üçün Fransanı yanına almaqla, Azərbaycan-Türkiyə tandeminə qarşı mübarizə aparmağa çalışacaq: "Əsas hədəf status məsələsini gündəliyə gətirmək, problemi qaldırmaqla öz rolunu artırmaqdır. Bununla Rusiya tərəfi Azərbaycanı KTMT və Avrasiya İttifaqına cəlb etmək üçün əlində bir təzyiq kimi istifadə edəcək. Prezident Putinin fransalı həmkarı Makronla telefon danışığında Qarabağ məsələsinin müzakirə etməsi son vaxtlar Türkiyə və Azərbaycanla əlaqələrində yaşanan siyasi soyuqluqdan qaynaqlanır. Əvvəldə qeyd etmişdik ki, Rusiyanın Türkiyə və Azərbaycanla əlaqələri yüksək səviyyədə olmayacaq. Müəyyən bir narazılıq yaranan təqdirdə Kreml Qarabağ məsələsindən Azərbaycana qarşı təzyiq kimi istifadə edəcək. Fransanı prosesə cəlb etməklə "status" məsələsini qaldıracaqlar və danışıqları gündəmə gətirəcəklər. Halbuki, Rusiya ilk günlərdə çalışırdı ki, Paris prosesdən kənar qalsın. Rusiya bununla göstərmək istəyir ki, münaqişə bitməyib. Lakin Azərbaycan münaqişənin bitdiyini elan edib. Azərbaycan üçün yeni böhranlı proses başlaya bilər. Fransanın Qarabağda erməni separatçılarına dəstək verməsi bunu göstərir. Fransa və Rusiya arasında Qarabağ müzakirəsi separatizmi qabartmağa xidmət edir. Fransa senatının üzvləri separatçıların "müstəqilliyinin" tanınmasını irəli sürüblər. Hesab edirəm ki, Azərbaycan Fransaya nota verməli və Minsk qrupunun yenidən dirçəlişinə razılıq verməməlidir. Rusiyanın bu kimi fəaliyyətinin qarşısının alınması üçün Moskva ilə sistemli şəkildə danışılmalıdır. İlk növbədə Laçın dəhlizində post qoymaq üçün hərəkətə keçmək lazımdır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

## Qaxda çoxillik palıd ağacı kökündən kəsilib



**Qax rayonunda irigövdəli palıd ağacı kökündən kəsilib.**

Bu barədə sosial şəbəkələrdə məlumat yayılıb. Qeyd olunub ki, hadisə ötən gün Zəyəm kəndində qeydə alınıb. Palıd ağacı sözügedən kənd qəbiristanlığında olub. Qax rayon İcra Hakimiyyətindən Trend-ə bildirilib ki, məsələ araşdırıldıqdan sonra ictimaiyyətə məlumat veriləcək.

## Azərbaycanda "Zoom"un analoqu yaradılıb



**Azərbaycanda yaxın vaxtlarda "Zoom" videokonfrans xidmətinin analoqunu istifadəyə veriləcək. Bu barədə "APA-Economics"ə "Sinam" şirkətindən bildirilib.**

Qeyd olunub ki, yaxın gələcəkdə istifadəyə veriləcək sözügedən "bulud" platforması onlayn görüşlər və konfranslar keçirmək üçün etibarlı əlaqə qurmağa imkan yaradacaq. Həllin funksionalı onu məsafədən təhsil üçün də istifadə etməyə imkan verir.

"Yaxın gələcəkdə xidmət kütləvi istifadəyə veriləcək", - deyə şirkətdən bildirilib.

# Direktorlar qanunvericilik bazasını bilməlidir

*Bu olmasa məktəbi yaxşı idarə edə bilməzlər*



Masallı şəhər 1 saylı tam orta məktəbin direktoru Mirxanım Hüseynova və Masallı şəhər 6 saylı tam orta məktəbin direktoru Elman Nəzərov müvafiq əmrlə tutduqları vəzifələrindən çıxarılıblar. Buna səbəb onların işlərində yol verdiyi bir sıra nöqsanlardır.

**Mövzu barədə fikirlərini "Şərq"lə bölüşən tarix elmi üzrə fəlsəfə doktoru, təhsil eksperti Kamran Əsədov təhsil sistemində ciddi islahatların aparıldığını söyləyib:** "Məktəb direktoru qanunvericilik bazasını bilsə, o, məktəbi yaxşı idarə edəcək. Çünki təhsil qanunvericiliyində müəssisəsinin necə idarə edilməli olduğu öz əksini tapıb.

Tədris prosesində xoşagəlməz halların olması təəssüf doğurur. Adətən məktəb direktorları müəllimlərdən dərs bölgüsünə, uşaqların dərslərdə iştirak etməsinə, həmçinin etməməsinə görə pul və ya müəyyən ödənişlər tələb edir. Bu da təhsilin keyfiyyətinə birbaşa mənfi təsir göstərir. Bunları aradan qaldırmaq üçün idarəetmədə şəffaflıq, obyektivlik və mobilliyi artırmaq vacibdir".

**Ekspert təəssüflə qeyd edib ki, təhsil sistemində ciddi şəkildə özbaşınalıq var:** "Öz vəzifəsindən sui-istifadə edənlər buna görə cəzalandırılır. Bu vəziyyət aradan qaldırılmalıdır ki, təhsilin keyfiyyəti yüksəlsin. Hər bir ölkənin uzunmüddətli iqtisadi inkişaf strategiyası keyfiyyətli təhsil mühitinin formalaşdırılması ilə səciyyələnir. Millətin təhsilinin və elmi potensialının inkişaf etdirilməsi, öz növbəsində, müasir cəmiyyətin davamlı və dinamik inkişafının əsas amillərindən biridir. Təsadüfi deyil ki, dünyanın inkişaf etmiş ölkələri məhz təhsildə yüksək inkişaf yolu keçməklə mühüm nəticələr əldə edə biliblər".

**Yeganə Bayramova**

# Kranla icazəsi olanlar işləməlidir

*Tikinti sahələrində 6 aydan bir yoxlamalar keçirilməlidir*



Bakıda tikintidə yükqaldırıcı qurğunun qırılması nəticəsində faciə baş verib. Hadisə paytaxtın Səbail rayonu, Neftçi Qurban küçəsi 29 ünvanında qeydə alınıb. Çoxmərtəbəli binanın tikintisi zamanı ərazidə yuxarı mərtəbəyə yük qaldıran qurğunun trosu qırılıb. Nəticədə qurğuda olan fəhlələrdən biri ölüb, bir nəfər isə ağır xəsarətlərlə xəstəxanaya yerləşdirilib.

Ölkəmizdə iş yerlərində, istehsalatda baş verən qəzalarda yüzlərlə insan həyatını itirir və ya müəyyən bədən xəsarətləri alaraq əlil olur. Bu isə işçilərin təhlükəsizliyinin kifayət qədər qorunmadığının göstəricisidir.

Baş verən faciəni "Şərq"ə dəyərləndirən təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyevin sözlərinə görə, kranlar, eləcə də tikinti sahəsində istifadə olunan yükqaldırıcı qurğu və mexanizmlər elə qurulmalıdır ki, istənilən hava şəraitində aşma təhlükəsi olmasın: "Birinci növbədə kranın yerləşdiyi yerin möhkəm olması və yükqaldırma əməliyyatı zamanı ətrafında yüksək gərginlikli elektrik xətlərinin olmaması lazımdır. Həmçinin kranın ətrafdakı insanlar üçün təhlükə riski yaratmaması və ətrafında mühafizə zonasının yaradılması vacibdir. Kranlar istehsalçı şirkət tərəfindən onlara təyin edilmiş yükgötürmə çəkisini aşmamalıdır. Həmçinin təyin olunmuş texniki qulluq və vaxtında sertifikasiyadan keçməni həyata keçirməli, əlverişsiz hava şəraitində işləri təhlükəsizlik normalarına uyğun təşkil etməli, avadanlıqları və aksesuarları 6 aydan bir yoxlamadan keçirməlidir. Hər gün istifadə edilməzdən qabaq kranların işlək və saz vəziyyətdə olmasını yoxlamaq, kanatın zədəsiz, əzilməmiş, hörüklərində kəsik və qırılmış tellərinin sayı 10 faizdən çox olmamalıdır. Sürtünmə və korroziya nəticəsində kanatın diametrində 5-7 faiz azalma olubsa, işləməsi yolverilməzdir. Kranları yalnız kranla işləməyə icazəsi olan şəxslər idarə edə bilər. Həmin şəxslər mütəmadi olaraq hər il sertifikasiyadan keçirlər. Yeni kranlarla işləmək, yüklərin qaldırılması və endirilməsi zamanı təhlükə risklərini nəzərə alaraq, bütün təhlükəsizlik tədbirləri görülməlidir ki, bədbəxt hadisələr baş verməsin".

**E.Nurəliyev qeyd edib ki, kranın trosu qırılıb, aşıb, yükü dağılıb və s. bu kimi hadisələr olubsa, onun axırıncı dəfə nə zaman yoxlamadan keçib və hansı rəyi almasına baxmaq lazımdır:** "Nasazlıq var idisə, necə yoxlamadan keçib, yoxdursa və hər şey qaydasındadırsa, deməli, kranın istismarı zamanı təhlükəsizlik qaydalarına riayət edilməyib. Texniki qulluq vaxtında və düzgün göstərilməyib ki, qəza baş verib. Təbii ki, hadisə baş veribsə, aidiyyəti üzrə müvafiq qurumlar tərəfindən araşdırılma aparılacaq və məsələyə hüquqi qiymət veriləcək".

**Yeganə Bayramova**

## YPX avtomobili qəzaya düşüb

Polis əməkdaşı xəsarət alıb




**Novxanı qəsəbəsində üç avtomobil qəzaya uğrayıb.**

APA xəbər verir ki, hadisə Masazır qəsəbəsindən Novxanı qəsəbəsinə gedən yolda baş verib. Belə ki, YPX-nə məxsus 10-YP-051 dövlət nömrə nişanlı "Mercedes" markalı avtomobil hərəkətdə olarkən əvvəlcə "Toyoto" və "Opel" markalı nəqliyyat vasitələrinə çırpılıb. İdarəetmədən çıxan "Mercedes" daha sonra qaz borusuna çırpılaraq dayanıb. Qəza nəticəsində YPX-nin əməkdaşı xəsarət alıb.

## "Ramin yeraz" saxlanıldı



**Narkotik vasitələrin təbliğində şübhəli bilinən "Ramin yeraz" adlı sosial şəbəkə istifadəçisi saxlanılıb .**

DİN Mətbuat xidmətindən verilən məlumata görə, sosial şəbəkələrdə "Ramin yeraz" kimi qeydiyyatdan keçən şəxsin canlı yayımlar açaraq narkotik vasitələrin təbliğini həyata keçirməsi və ictimaiyyətə yönəlik təhqiramiz ifadələr işlətməsi barədə vətəndaşlardan daxil olmuş çoxsaylı şikayətlər əsasında Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsi tərəfindən müvafiq tədbirlər görülüb. Belə ki, paytaxtın Nizami rayon sakini olan Ramin İsmayılov narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilindiyi üçün saxlanılıb. Şəxsi axtarış zamanı onun üzərindən 5,140 qram heroin aşkar edilərək götürülüb. Həmin şəxs barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, zəruri istintaq tədbirləri davam etdirilir. Şəxs barəsində istintaq müddətində həbs qətimkan tədbirinin seçilməsi üçün məhkəmə orqanları qarşısında vəsatət qaldırılıb.

*Qeyd edək ki, Ramin tamaşaçılara Zaur Baxşəliyevin aparıcısı olduğu "Bizimləsən" proqramından tanışdır.*

# Bəzi valideynlər yalan məlumatlara inanırlar

*Həkimin nəzarəti ilə peyvəndlənmə qaldığı yerdən davam etdirilməlidir*



"İmmunlaşma müxtəlif infeksion xəstəliklərdən qorunma üsuludur. Peyvənd sayəsində orqanizmdə infeksion xəstəliklərə qarşı immunitet yaranır. Bu, həmin xəstəliklərə yoluxma riskini azaltmış və xəstəliyin yarada biləcəyi ağırlaşmaların qarşısını almış olur. İmmunlaşma sayəsində dünyada hər il ortalama 2-3 milyon ölümün qarşısını almaq mümkün olur. Peyvənd orqanizmin təbii müdafiə qüvvələrini stimullaşdıraraq, orqanizmi xəstəliyə qarşı daha effektiv mübarizə aparmaq üçün hazırlayır".

**Bu sözləri "Şərq"ə açıqlamasında həkim-neonatoloq Ülkər Məhərrəmova deyib. Həkimin sözlərinə görə, peyvənd virus və bakteriyaların canlı və ölü növlərindən hazırlanmış bioaktiv vasitədir:** "Peyvənd sayəsində orqanizmdə immun reaksiya formalaşır. Gələcəkdə insan virus və bakteriyaya yoluxsa belə, immun sistemi onlarla mübarizəyə hazır olur. Peyvəndlər istifadəyə verilməmişdən öncə klinik sınaqlardan və ciddi təhlükəsizlik testlərindən keçirilir. Təhlükəsiz olduğu sübuta yetirildikdən sonra tətbiq edilməyə başlanır. Peyvəndlər uşaqlarımızı bir çox infeksion xəstəliklərdən qoruyur. Bunlar iflicə səbəb ola biləcək poliomielit, ağır pnevmoniya və hətta korluğa səbəb ola biləcək qızılca, ən çox oğlan uşaqlarında ağır fəsadlar yarada biləcək parotit, son illərdə dünyada ən çox yoluxma halları rast gəlinən hepatit B, ölüm faizi 40-60 faiz olan, sinir sisteminə çox güclü təsir edən tetanus xəstəliklərini misal göstərmək olar. Habelə, yüngül infeksion xəstəlik kimi bilinən, amma ağırlaşması zamanı qalıcı fəsadlar yarada bilən su çiçəyi xəstəliyini və bir çox digər infeksion xəstəliklərini də göstərmək olar".

*Ü.Məmmədova vurğulayıb ki, əgər şəxsdə öncəki peyvəndlərdə anafilaktik reaksiya görülübsə, o zaman peyvənd təkrar edilməməlidir:* "Həmin peyvəndin vurulması əks-göstəriş sayılır. Peyvənd olunduqdan sonra bəzən 2-3 gün ərzində bədən hərarətinin yüksəlməsi, peyvənd yerində yerli reaksiya görülə bilər. Bu zaman həkim nəzarəti ilə qızdırmasalıcı dərmanlardan istifadə etmək olar. Əgər hər hansı bir səbəbdən peyvəndlər arasında interval uzanarsa, həkimin nəzarəti ilə peyvəndlənmə qaldığı yerdən davam etdirilməlidir".

Həkim valideynlərin uşaqlarını peyvənd etdirməkdən imtina səbəblərindən birinə də toxunub: "Bəzən sual verirlər: "Peyvənd autizmə səbəb ola bilərmi?". Qeyd edim ki, 1998-ci ildə britaniyalı həkim Endrey Veikfild müəyyən qrup insanlarda OMP (qızılca, məxmərək, parotit) peyvəndinin autizmə yol aça biləcəyi fikrini irəli sürüb. Bununla bağlı tədqiqatçılar tərəfindən yüz minlərlə peyvənd olunmuş və olunmamış uşaqlar üzərində tədqiqatlar aparılıb və 2010-cu ildə bu fikrin əsassız olduğu sübutlarla öz təsdiqini tapıb. Bu səbəbdən sənədləri saxtalaşdırdığına və yanlış məlumat yaydığına görə həkimin lisenziyasına xitam verilib. Bir çox valideynlər bu yalan məlumatlara inanaraq, təəssüf ki, uşaqlarının peyvənd olunmasından imtina edir. Onları riskə məruz qoyurlar. Lakin hamı bilməlidir ki, bütün uşaqlar həkim nəzarəti ilə Dünya Səhiyyə Təşkilatının tərtib etdiyi, Azərbaycan Səhiyyə Nazirliyinin təsdiq etdiyi Milli Peyvənd təqviminə əsasən vaxtlı-vaxtında peyvənd olunmalıdır".

**Aynurə Pənahqızı**

# Heç kim pulunu itirmək istəmir

*Əhali arasında nağdsız hesablaşmaya qarşı inamsızlıq yaranıb*



"ƏDV-nin kartdan tutulması bir sıra şəxslərdə nağdsız hesablaşmaya qarşı inamsızlıq yaradıb".

**Bu sözləri "Şərq"ə açıqlamasında iqtisadçı-ekspert Rauf Qarayev deyib. O qeyd edib ki, bunu Vergi Orqanının sosial şəbəkədə yerləşən və nağdsız hesablaşma ilə bağlı olan video çarxı şərhində də görmək olar:** "Şərhlərdən də belə qənaətə gəlmək olar ki, son durum və ard-arda bankların vətəndaşlardan mal alışı və xidmət haqqı üçün tutulan ƏDV-nin geri istənilməsi bir sıra şəxslərdə artıq kartdan ödəniş etməkdə çətinlik yaradıb. Artıq alış-veriş, taksi xidməti ilə bağlı kartla ödəniş etmək bir sıra şəxslərdə pulu itirmək fobiyası yaradıb. Belə ki, vətəndaş hesab edir ki, əgər bu gün o, kartından istifadə edib pulu köçürsə, bir ildən sonra bank tərəfindən mesaj göndəriləcək ki, sizin ƏDV borcunuz var. Bu isə o deməkdir ki, vətəndaş artıq vəsait ödəməlidir".

*R.Qarayev vurğulayıb ki, ümumiyyətlə, vergi sisteminin apardığı siyasətdə bir sıra vətəndaşları qorxudan məqamlar var:* "Bu tək nağdsız ödənişlə bağlı deyil. Burada sahibkara gələn ardarda kameral yoxlamalar da aiddir. Təbii ki, bu cür hallar insanlarda artıq inamsızlıq yaradır. Misal üçün, bu yaxınlarda Kəmalə Məmmədova adlı şəxs mənə müraciət edərək bildirdi ki, ona kameral yoxlamalar gəlib. Qeyd edim ki, mühasiblərin ən çox şikayətləndiyi məqam kamerallarla bağlıdır, əsasən avans hesabatlarla bağlı çoxlu şikayətlərdir. Ümid edirəm ki, vergi orqanı kameral məsələsinə qanun çərçivəsində aydınlıq gətirəcək. Hesab edirəm ki, vergi fobiyalardan qurtulmaq üçün, iş sistemi dürüst şəkildə görülməlidir. Təbii ki, bu məsələr xaricdən gələn investorların qarşısını ala bilər. İnvestor hər bir detalı nəzərə alıb ölkəyə gəlib, yatırım edir. Təklif edirəm ki, kölgə iqtisadiyyatını aradan qaldırmaq üçün qanunvericiliyə dürüst yanaşıb, planı yerinə yetirmək olar. Qanunda bunun üçün kifayət qədər maddə var. Bundan əlavə sahibkardan əlavə yığılan ödənişləri büdcəyə köçürmək daha məqsədəuyğun olar. Fikrimcə, qanunvericilikdə cərimələri sərtləşdirməkdənsə, düzgün təbliğat aparılmalıdır. Elə etmək lazımdır ki, Gürcüstandakı kimi sahibkar özü vergini ödəməkdə maraqlı olsun. Bundan əlavə iqtisadçıların müraciət və təkliflərinə baxmaqda da fayda var".

"Elə etmək lazımdır ki, Gürcüstandakı kimi sahibkar özü vergini ödəməkdə maraqlı olsun"

**Aynurə Pənahqızı**

# Bəzi həkimlər etik-davranış qaydalarını bilmirlər

Bu günlərdə Tovuz rayonunda xəstəni döyən həkimin videosu geniş müzakirələrə səbəb oldu. Tovuz rayon Mərkəzi Rayon Xəstəxanasının həkimi Sona Hüseynova vətəndaşı döyməsi ilə bağlı yayılan videoya münasibət bildirib. Xəstəxananın psixiatrı Sona Hüseynova bildirib ki, 6 il öncə qeydiyyatda olan vətəndaş epilepsiyadan əziyyət çəkir.



## Tovuzda baş verənlər xanım həkimə yaraşmayan hərəkətdir

Onun sözlərinə görə, ona 3-cü qrup əlillik təyin olunub: "Son 5 ildə müayinə üçün müraciət edilməyib. Vətəndaşın dediyinə görə, Bakıda fəaliyyət göstərən özəl tibb müəssisələrinin birində müalicə alıb. Müayinə zamanı növbəlilik prinsipini pozaraq otağa Vətən müharibəsi qazisi adı ilə daxil olub. Lakin onun qazi olmadığı, hətta hərbi xidmət keçmədiyi məlum olub. Müayinə zamanı ciddi şəxsiyyət pozuntusu aşkar olunmadı, əlilliyin təyin olunması ilə bağlı isə özünə məlumat verilmədi. Çünki əlilliyin meyarlarına görə epileptik tutmalarının sayı vacibdir. Son 5 ildə stasionar yatışla bağlı bir dənə belə olsun sənədi yoxdur.

Epileptik tutmasının olması, şəxsiyyət dəyişikliyinin olub-olmaması barədə tək psixiatr kimi diaqnoz qoymağa hüququm yoxdur. Buna görə mənə stasionar yatış barədə sənəd, epiqriz lazım idi. Lakin vətəndaş stasionar yatışa razı olmadığını bildirərək məni qanunsuzluqda ittiham edərək cinayət işi törətməkdə günahlandırdı. Videoçəkiliş etməyə icazə olmadığını bildirsəm də, məni videogörüntəyə almağa cəhd göstərdi. Bir xanım kimi məni təhqir edərək nalayiq təkliflər etdi. Məqsədim telefonu onun əlindən almaq olub. Videonun yayılmaması üçün məni şantaj etməyə başladı. Bildirdi ki, ya 3 min manat pul verəcəm, ya da videonu yayımlayaraq məni rüsvay edəcək".

**Tibb və fəlsəfə elmləri doktoru, həkim Şəmsiyyə Namazlı hadisəyə dair "Şərq"ə açıqlama verib. Həkim bildirib ki, həkimin xəstə və onun qohumları ilə davranış tərzi təbabətdə olduqca önəmli faktorlardan biridir:** "Bu, peşəkarlıqdan irəli gələn bir durumdur. Təəssüf ki, müasir dövrümüzdə bəzi həkimlərin davranış tərzlərində normal hallara rast gəlmirik. Məlumdur ki, cəmiyyətdə ən çox tənqid olunanlar məhz həkimlərdir. Çünki onlar insanlarla çox ünsiyyətdə olurlar. Bəzi həkimlər əxlaqi-etik davranış normalarına əməl etmirlər. Baş verən hadisə də bunun bariz nümunəsidir. Nalayiq təkliflər edilsə belə, bu davranış xüsusilə qadın həkimə yaraşan hərəkət deyildi. Görüntüləri izlədim və mənə çox qəribə gəldi ki, bir qadın belə əmələ əl atsın. Bir anlıq düşündüm ki, sanki həkimin əlində kəsici alət var, onu pasiyentin boğazına tutub "dayan" demək istəyirdi".

**Ş.Namazlı qeyd edib ki, xəstənin sinir sistemi yerində olmaya və bunun üçün də yanlış ifadələr səsləndirə bilər:** "Lakin pasiyentin qarşısındakı bir həkimdir axı. Ola bilsin ki, həmin xanım savadlı həkimdir. Lakin bu, xanıma yaraşmayan hərəkətdir. Baş verənlər mənim tibbi və fəlsəfi dünyama yad olan bir haldır. Bütün bunlar nə Azərbaycan qadınına, nə də həkiminə yaraşır".

**Yeganə Bayramova**

# Yerin görünəcək, gözəl sənətkar!

## *Baloğlan Əşrəfovun qəfil vəfatı sənət dostlarını qəhərə boğdu*



Aprelin 26-dan 27-nə keçən gecə Əməkdar artist Baloğlan Əşrəfov koronavirusdan dünyasını dəyişdi. Bu acı xəbər hər kəsi, həm onun sənət dostlarını, həm də sevənlərini üzdü. Onun ölümü ilə bağlı şou əhli də sosial şəbəkə hesablarında paylaşımlar ediblər.

*"Şərq" xəbər verir ki, Xalq artisti Röya Ayxan mərhumun fotosunu paylaşaraq bu sözləri yazıb:* "Sizi bizə tarix hər zaman xatırladacaq. Nə yaxşı ki, mən sizə sarıldım və xoş sözlərimi deyə bildim".

**Müğənni Xatirə İslam isə kədərini belə dilə gətirib:**

"Bilmirəm ki, nə yazım və necə yazım. Haradan başlayım... Allah rəhmət eləsin, o dünyasını versin".

**Meyxanaçı Namiq Qaraçuxurlu da sənətkarın ölümündən yazıb:** "Baloğlan müəllim nəinki isdedadı ilə, xarakteri ilə də seçilirdi. Ağırlığını saxlaya bilən adam idi. Allah rəhmət eləsin".

**Qiraətçi Pünhan İsmayıllı da üzüntüsünü instaqram hesabında ifadə edib:** "Allah sənə rəhmət eləsin, Bal oğlan! Korona, sənin anan ölsün ".

**Müğənni Nazənin Salayeva da acı xəbərdən sarsılıb. O çox üzüldüyünü söyləyib:** "Bal səsli, abır-həyalı, hörmətli, dəyərli bir sənətkarı itirdik. Vəfasız dünya!".

*Qeyd edək ki, Baloğlan Əşrəfov 1951-ci il oktyabrın 8-də Masallı rayonunun Bədəlan kəndində anadan olub. 1968-ci ildə həmin kənddə orta məktəbi bitirməklə yanaşı, rayonun 7 illik musiqi məktəbinin nəzdində fəaliyyət göstərən 5 illik tar kursunu bitirib.*

*1978-ci ildə ADU-nun filologiya fakültəsini qurtarıb, 5 il kənddə müəllim işləyib. 1971-ci ildə Azərbaycan radiosunun keçirdiyi "Turac təranələri" radio olimpiadasının qalibi olub.*

*1974-cü ildə keçirilən "Zəhmətkeşlərin və gənclərin ümumittifaq festivalı"nda qalib olaraq diplomu ona şəxsən Şövkət Ələkbərova təqdim edib.*

*İslam Rzayevin ansamblında çalışarkən bütün Azərbaycanın rayon və kəndlərini qarış-qarış gəzib əməkçilər qarşısında çıxışlar edib. Dünyanın bir sıra ölkələrində - Türkiyə, İraq, Almaniya və MDB-nin bütün böyük şəhərlərində konsert proqramları ilə çıxış edib.*

*2007-ci ildə Azərbaycanın Əməkdar artisti adına layiq görülüb.*

*Mərhum doğulduğu Masallı rayonunun Bədəlan kəndində anasının məzarı yanında torpağa tapşırılıb.*

*Dəfn mərasimi pandemiya qaydalarına uyğun olaraq, məhdud sayda şəxsin iştirakı ilə həyata keçirilib.*

***Samirə Ərəblinski***

## "Həkim deyir ki, yarım saat çəkəcək"

### Cavanşir Məmmədov da estetik əməliyyata hazırlaşır



**Əməkdar artist Cavanşir Məmmədov "Onda görüşək" verilişində qonaq olarkən plastik əməliyyatlardan danışıb. O, gələn ay estetik etdirəcəyini söyləyib.**

"Şərq"in məlumatına görə, müğənni bunları deyib:

"Ölkədə birinci saç əkdirən Cabbar Musayev olub, onun ardınca Vasif Məhərrəmli, sonra Elariz Məmmədov və mən. O zaman buna bəzi adamlar deyirdilər ki, kişi niyə saç əkdirir? Saç əkdirmək nədir ki? Əgər avtomobil qəzasına düşsən, dərinin bir tərəfini itirsən, plastik əməliyyat olunmalısan. Məsələn, mənim göz qapaqlarım aşağı düşür. Əməliyyatla onu yuxarı qaldıracam. Həkim deyib, yarım saata düzəldəcəm. Sənət adamlarından da bir neçə nəfər edib. Ad çəkməyəcəm. Qırışlara qarşı botoks etdirməmişəm. Həkim dedi ki, əməliyyatdan sonra baxacam, ehtiyac olsa, edərik".

**Samirə**

## Toy üçün dəvət almışdı, olmadı

### Baloğlan Əşrəfov mayda Moskvaya gedəcəkdi



**Müğənni Rəqsanə İsmayılova gecə saatlarında dünyasını dəyişən Əməkdar artist Baloğlan Əşrəfovun səs yazısını yayıb.**

"Şərq"in məlumatına görə, o, mərhumla mesajlaşmasını paylaşaraq bu sözləri yazıb:

"Dəyərli insan, gözəl sənətkar, incəsənətimizdə öz dəst-xətti olan Baloğlan Əşrəfov rəhmətə getdi. Bu fani dünyaya əbədi olaraq gözlərini yumdu. İnana bilmirəm. Çox mehriban və gözəl insan idi. Sizin ifalar ölməyəcək, hər zaman yaşayacaqlar. Siz ölmədiniz, həmişə bizim qəlbimizdə yaşayacaqsınız. Görüşməliydik, çox heyif, qismət olmadı. May ayında Moskvaya gələcəkdi, konsert verəcəkdik. Toy üçün dəvət almışdı, olmadı. Allah sizə rəhmət eləsin. Yeriniz cənnət olsun".

**Samirə**

## Gülyaz Məmmədova üzülüb





### *"Kaş elə evdə oturardı, efirlərə çıxmayardı"*

"Baloğlan Əşrəfovla daha çox rayon tədbirlərində rastlaşırdıq. Ailəmizin sevimlisi olub. Bizim bütün məclislərimizdə Baloğlan Əşrəfov oxuyurdu. Hətta valideynlərimin qızıl toyunda da gəlmişdi".

Bu sözləri Axşam.az-a açıqlamasında Xalq artisti Gülyaz Məmmədova deyib. Müğənni gecə saatlarında dünyasını dəyişən Əməkdar artist Baloğlan Əşrəfovla bağlı xatirələrini bölüşüb:

"Çox vaxt efirə dəvət alanda deyirdi ki, məni Gülyaz və Gülyanaqla çağırın. Bu yaxınlarda da kanalların birindən zəng gəldi ki, Baloğlan Əşrəfov sizinlə verilişə çıxmaq istəyir. Getmədik, dedik, son günlər efirə çox çıxırıq. Utandıq, dedim ki, üzürlü saysın, gələ bilməyəcəm. Mübariz Mənsimova görə bir il efirlərə çıxmadı. Kaş elə evdə oturaydı, efirlərə çıxmayardı. Xəstəlikdən sonra çıxardı. Onun nəğmələri, özü çox sevilib. Onun mahnıları yadda qalacaq".

G.Məmmədova sosial şəbəkədə şair Vüqar Əhmədin paylaşımına yazdığı "Deyirdilər verilişlərdən birində çox qorxub" sözlərinə də aydınlıq gətirib:

"ARB telekanalında qonaq olub. Ordan eşitdim ki, dedilər, qatıldığı sonuncu proqramdan sonra qorxub".

*Qeyd edək ki, B.Əşrəfov ölümündən bir neçə gün əvvəl Axşam.az-a açıqlamasında telekanalları tənqid etmişdi. O, çox qonağın eyni anda dəvət edildiyini, mikrofonların dezinfeksiya olunmadan bir-birinə ötürüldüyünü söyləmişdi.*

## Nadir Qafarzadə Baloğlan Əşrəfovun ölümündən yazdı

### "Sıra məndədir, çox yorulmuşam, çox"



**"Bu da son. Ömrün harada bitəcəyini kimsə bilmir".**

"Şərq" xəbər verir ki, bu sözləri instaqram səhifəsində müğənni Nadir Qafarzadə Əməkdar artist Baloğlan Əşrəfovun ölümü haqda yazıb:

"Allah sizə rəhmət eləsin. İtirdiklərimiz qazandıqlarımızdan çox oldu, çox... "Məni bu dünyadan aparmaq üçün tufanlı, leysanlı karvan gələcək. Səni də apardı tufanlar, sənətkar. Nədənsə inanmaq istəmirəm. Sizə həsəd aparırdım, sənətkar. Bu fani dünyadan haqq dünyasına gedən qədəmlərimiz mübarək. Rahat yat, cənnətlik ol. Sıra məndədir, çox yorulmuşam, çox. Cənnətdə görüşərik. Onsuz da yaşamağın mənası yoxdur. Gözlərimizin yaşı qurumur".

**Samirə**

## Türkan Pərviz Bülbüləni dəftərindən silib



**Bir müddətdir ki, illərdir duet ortağı olan meyxanaçı Pərviz Bülbülə və müğənni Türkan Vəlizadə haqda iş birliklərini sonlandırdıqları söylənilirdi.**

Hətta aralarında soyuqluq olduğunu özləri etiraf etmiş, lakin sonradan bir araya gəlmişdilər. Yaxınlarda isə Türkan Vəlizadə türkiyəli ulduz Doğuşla mahnı ifa etdi. Bunun ardınca P.Bülbülə müğənni Aydan İbrahimli ilə ifalarını yayımlandı. Dünən isə meyxanaçıdan gözlənilməz həmlə gəldi.

"Şərq" xəbər verir ki, o, bir müddət öncə mərhum meyxanaçı Vüqar Biləcərinin qəzəlinə Türkanla ifa etdikləri mahnını Aydanla oxuyub. Hətta söz ustadı Türkanla ifalarından bir hissə də paylaşmışdı. Görünür, həmin ifa təxirə düşüb. Türkan isə P.Bülbüləni instaqramda "takip"dən çıxardıb.

**Samirə**

## Vüqar Əhməd də üzgündür

### Baloğlan Əşrəfovun itkisi ilə barışa bilmir



**Xəbər verdiyimiz kimi əməkdar artist Baloğlan Əşrəfov koronavirusdan vəfat edib.**

Bu acı xəbər sənət dünyasını dərindən sarsıb. Onun yaxın dostları, sevənləri sosial şəbəkələrdə kədərlərini dilə gətiriblər.

"Şərq" xəbər verir ki, şair Vüqar Əhməd isə onunla ölümündə bir qədər öncə danışdığını söyləyib. O, bu barədə feysbuk səhifəsində yazıb: "3 saat öncə danışdım. Dedi, Vüqar, yaxşı olacam. Heyif... özümə gələ bilmirəm. Allah rəhmət eləsin".

**Samirə**

# Dünya o həkimdən danışır

*Səhhəti ağırlaşdı, amma əməliyyatı dayandırmadı*

(Əvvəli səh: 16-da)



Əməliyyat otağındakı tibb bacısı cərrahın ayağına sistem taxılmış halda fotosunu çəkib. Foto sosial şəbəkədə paylaşılıb. "Şərq" Türkiyənin "Milliyet.com" saytına istinadən xəbər verir ki, foto sayəsində dünya bu fədakar həkimi tanıdı və indi dünyanın hər yerindən ona heyranlıq mesayları gəlir.

Professor O.Basut özü isə əməliyyat barədə danışaraq bunları deyib: "Çox çətin bir əməliyyat idi. Mən bu əməliyyata məsuliyyət daşıyırdım və onu problemsiz bir şəkildə başa çatdırmalı idim. Əməliyyatı uğurlu bir şəkildə tamamladım". Bəs cərrahın halı niyə pisləşib. Verilən xəbərdə bildirilir ki, sözügedən əməliyyatdan bir gün əvvəl O.Basut qida zəhərlənməsi keçiribmiş. Özünü yaxşı hiss etdiyi üçün əməliyyata başlamaq qərarına gəlib. Amma əməliyyatın gedişində səhhəti ağırlaşıb. "Bizim üçün gərgin bir gün idi. Əməliyyatdan əvvəlki gün mən bir qida zəhərlənməsi keçirdim. Yediyim bir şey toxundu, hər halda. Zəhərlənmə səbəbiylə orqanizm o gün həddindən artıq su itkisi yaşadı. Hətta əməliyyatdan əvvəl də "serum" taxdırmışdım. Ertəsi gün gənc qızımızın tüpürcək şişi əməliyyat edilərək götürülməliydi. Əvvəldən planlaşdırılmış əməliyyat idi. Özümü yaxşı hiss edirdim deyə, əməliyyata başladım. Lakin əməliyyatın gedişində hiss etdim ki, əhvalım dəyişir. O anda ağlıma bu gəldi ki, vəziyyətimin pisləşməsi maye itkisiylə bağlıdır. Əllərim məşğul olduğu üçün tibbi heyətə ayağıma serum taxmalarını tövsiyə etdim. Serum "çalışmağa" başladıqca, vəziyyətimin yaxşılaşdığını hiss edirdim. Vəziyyətim yaxşılaşmasaydı, əməliyyatı yarımçıq qoyacaqdım. Şükür ki, hər şey yaxşı oldu, əməliyyat uğurla başa çatdı", söyləyən Oğuz Basut özü də məşhur fotonun altında şərh yazıb: Pandemiya müddətində bütün fədakar səhiyyə işçiləri kimi hər cür şəraitdə çalışmağa davam edirik. Amma yorulduq! Lütfən, qaydalara riayət edək, riayət edilməsinə yardımçı olaq! Toplumun bizə dəstək olması lazımdır. Çünki biz də bir yerə qədər dayana, dirənə bilirik". Cərrahın paylaşımı, Bursa Uludağ Universitetinin rektoru, professor Saim Kılavuz başda olmaqla qısa müddətdə çoxsaylı bəyənmə "alıb".

**Məlahət**

## Gündə ən azı beş min addım yerimək lazımdır

Həkimlər yekdilliklə oturaq həyat tərzinin təhlükəli olduğunu söyləyirlər



**Hər gün 10 min addım yeriməyin faydalı olması barədə demək olar ki, əksər insanlar eşidib. Belə bir fikir var ki, addım sayı məsələsi "Manpo-Kei" cihazının reklam kampaniyası çərçivəsində icad edilib.**

Cihazın yapon dilindən tərcüməsi "10 min addımı ölçən" deməkdir. Bu fikr, 1960-cı illərdə Yaponiyada təbliğ olunmağa başladı və bu gün də mövcuddur. Qeyd edək ki, addımların sayı heçdən yaranmayıb. Bu hesablamanı Yaponiya həkimi Yosira Xatano aparıb.

Deyerler.org bildirir ki, həkimin hesablamalarına görə, yaponlar orta hesabla gündə 4000 addım ataraq, təqribən 300-400 kilokalori yandırır. Onun fikrincə, gündəlik fiziki yük artırılaraq addımların sayı 10 minə çatsa, təxminən 500 kalori sərf olunacaq. Əlbəttə burada məntiq var, amma müasir araşdırmalar on min addımın faydasını sübut etmir. Bəli, həkimlər yekdilliklə oturaq həyat tərzinin təhlükəli olduğunu söyləyirlər, ancaq gündə ən azı beş min addım atılsa, minimum fiziki fəaliyyət baryerinin keçildiyi hesab edilə bilər.

Bundan əlavə, digər bir araşdırmada, beş min addım piyada gedənlərdə artıq çəki və yüksək qan təzyiqi riskinin xeyli az olduğu aşkar edilmişdir. Digər tədqiqatlar, gündə beş və on min addım atanların sağlamlığında çox fərq olmadığını göstərib. Əsas odur ki, insan oturaq həyat tərzi sürməsin və bu anlamda hər kəsin öz fiziki yüklənmə həddi var.

**Elan**

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının İdman təkmübarizliyi fakültəsinin məzunu Vüsal Abdullazadənin A 052338 nömrəi diplomu itdiyi üçün etibarsız sayıır.

# "Kiçik Ürəklərdə Böyük Xatirələr"

*Azercell-in dəstəyilə şəhid övladları üçün reabilitasiya proqramına start verilir*

Korporativ Sosial Məsuliyyəti öz fəaliyyətinin ayrılmaz və mühüm hissəsi hesab edən "Azercell Telekom" şirkətinin dəstəyi ilə "Kiçik Ürəklərdə Böyük Xatirələr" adlı sosial layihəyə start verilib.

Layihənin əsas məqsədi ikinci Qarabağ müharibəsində şəhid olan hərbçilərimizin övladları üçün art terapiya yolu ilə psixoloji təlimlər təşkil etmək, eləcə də onların qəhrəman ataları haqqında ən gözəl xatirələrindən ibarət kitabı həm rəqəmsal, həm də çap formatda nəşr etməkdir. Layihədə Azercell-in partnyoru "GİD CSR Consulting" şirkətidir.

"Kiçik Ürəklərdə Böyük Xatirələr" layihəsində 5-14 yaş arasında olan 300 uşağın anası ilə birgə iştirak edəcəyi planlaşdırılır. COVİD-19 virusunun yayılması ilə əlaqədar pandemik şəraiti nəzərə alaraq, təlimlər onlayn şəkildə keçirilir.

Təlimlər bir neçə istiqamət üzrə təşkil olunub. "Art terapiya" (təsviri sənət terapiyası) uşaqların özünü rahat və azad formada ifadə etməsinə, içində qapalı saxladıqları duyğularını üzə çıxarmalarına şərait yaradacaq. Musiqi, rəsm, hərəkət-rəqs, ədəbiyyat kimi sənət növlərinin köməyilə terapiya alan uşaqlar həm də bu yolla estetik yönlərini ortaya çıxara biləcəklər.

"Arzular ağacı" mövzusunda təlimin məqsədi isə iştirakçılarda özünə inam və ruh yüksəkliyi yaratmaqdır. Bu təlimin köməyilə uşaqlara və onların valideynlərinə psixoloji

yardım göstərmək mümkün olacaq. Bu təlim böyük sarsıntı yaşayan uşaqların üzləşdikləri psixoloji problemləri adlamaqlarına, gələcəkdə yarana biləcək daha ağır çətinliklərin qarşısını almağa kömək edəcək. Layihə çərçivəsində təlimlər zamanı xüsusi psixoloji çətinlik yaşayan uşaqların olduğu aşkarlanarsa, onların valideynləri ilə fərdi görüşlər də təşkil ediləcək.

"Uğur hekayəsi" istiqamətindəki təlimlərdə tanınmış şəxslər, böyük çətinliklər bahasına uğur qazanan peşəkarlarla görüş nəzərdə tutulub.

Layihə çərçivəsində şəhid övladlarının qəhrəman ataları haqqında xatirələri bir kitabda toplanacaq. Həm çap, həm də elektron formatda hazırlanacaq kitabın ayrıca bir bölümü atası haqqında heç xatirəsi olmayan körpə şəhid övladlarına həsr ediləcək. Bu kitab şəhidlərin öz ailələri ilə yanaşı, hər kəsin xatirələrində və qəlbində yaşamasına kömək edəcək. Kitabın elektron versiyasını "Bookmate" mobil tətbiqindən də oxumaq mümkün olacaq.

Bu layihə hər bir azərbaycanlının rahat gələcəyi naminə torpaqlarımızın işğaldan azad olunması uğrunda canından keçən mərd və yenilməz hərbçilərimizə və onların ailələrinə duyulan hörmət və qayğının kiçik nümunəsidir.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 792

# Zəlzələdən qurtulmaq üçün "uçan" evlər hazırlandı



**Yaponiyanın "Air Danshin Systems" dizayn şirkətinin mütəxəssisləri təbii fəlakətlərin, o cümlədən zəlzələlərin nəticələrinin qarşısını almaq üçün "uçan" evlərin layihəsini təqdim ediblər.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, yapon ixtiraçıları bütün binanı yerdən qaldıran xüsusi hava yastıqlarını tətbiq etməyə müvəffəq olublar. Belə ki, bina ilə təməl arasında hava yastığı, seysmik sensorlar və təzyiq kompressoru yerləşir.

Yer qabığında baş verən ən kiçik titrəyişlər zamanı belə, təhlükəsizlik sistemi işə salınır və bir neçə saniyə içində yastıq hava ilə doluraq evi yerdən yuxarı qaldırır.

# Yaponların uzun ömürlük sirri

## Yeməklərin çoxu suda, buxarda bişir



**Yaponlar elə də idman həvəskarı deyillər, amma ömürlərinin sonuna qədər bədənləri qıvraq qalır. Medicina.az yaponların uzun ömürlülüyünün daha bir sirrini təqdim edir.**

Yaponların ət qidasının yanında mütləq bir boşqab tərəvəz olur. Tərəvəzlər ya çiy doğranılıb sirkələnir, ya da buxarda bişirilir. Yaponlar yeməyi çox uzun müddət çeynəyir, aramla yeyirlər. Onlar heç vaxt yeməyi yağda qızartmırlar. Yeməklərin çoxu suda, buxarda bişir. Daha çox balıq və dəniz məhsulları yeyirlər.

# 1,8 milyon dollar...

## Milyarder repçinin ayaqqabısı rekord məbləğə satıldı



**Dünyaca məşhur milyarder repçi Kanye Uestin ayaqqabısı hərracda rekord məbləğə - 1,8 milyon dollara (təxminən 3 milyon 60 min manat) satılıb.**

Bu barədə Londonda yerləşən "Sotheby's" hərrac evinin Tvitter səhifəsində məlumat verilib.

Uest və Mark Smit tərəfindən "Nike" üçün hazırlan idman ayaqqabısı nadir kolleksiya ayaqqabıların alış-satışı ilə məşğul olan "Rares" şirkəti tərəfindən alınıb.

*Qeyd edək ki, həmin ayaqqabı repçinin Qremmideki çıxışından sonra xeyriyyə hərracında Nyu-Yorkda yaşayan kolleksiyaçı Rayan Çanqa satılmışdı. Bundan əvvəl isə ən baha qiymətə əfsanəvi basketbolçu Maykl Cordanın 1985-ci ildə geyindiyi ağ-qara rəngli "Nike Air Jordan 1" ayaqqabısı ötən il hərracda 560 min dollara satılmışdı.*

# Həkimlər də çarəsizdir

## Koronavirusdan ölmüş şəxslər küçələrə atılır



**Hindistanda COVİD-19 səbəbindən pasiyentlər küçələrə atılır.**

Azxeber.com bildirir ki, Hindistanda xəstəxanalarda oksigen çatışmazlığı səbəbilə həkimlər COVİD-19 xəstələrini müalicə etməkdə çətinlik çəkir. Xəstəxanalarda yer olmadığı üçün ölmüş şəxslər küçələrə atılır. Bir qadın isə təcili yardım tapa bilmədiyi üçün dünyasını dəyişmiş oğlunun cəsədini özü kiçik rikşa ilə daşıyıb.

Sosial mediyada yayılan görüntülər ölkədə səhiyyə böhranının hansı səviyyədə olduğunu ortaya qoyub.

Çatışmazlıq səbəbilə təcili yardım və oksigen qiymətləri pik həddə çatıb. Oksigen tapa bilməyən bəzi xəstələr boğulmaqla ölür və ya vəziyyətə dözə bilməyib intihar edir.

Kanpu şəhərində isə bir qadının cəsədi küçənin ortasında tapılıb. Polislər bildirib ki, qadının virusa yoluxması səbəbilə oğlu xəstələnməmək üçün onu küçəyə atıb.




# Dünya o həkimdən danışır

## Səhhəti ağırlaşdı, amma əməliyyatı dayandırmadı



**20 yaşlı qızın tüpürcək vəzi törəməsinin cərrahi əməliyyatı zamanı Bursa Uludağ Universitetinin qulaq, burun, boğaz xəstəlikləri kafedrasının başqanı, professor Oğuz Basutun səhhəti ağırlaşıb.**

Lakin cərrah əməliyyatı dayandırmayıb. Əməliyyatda iştirak edən tibb personalına "ayağıma serum taxın" təlimatı verib və ayağına sistem qoşulu halda əməliiyyata davam edib.

*(Davamı səh: 15-də)*

# Siçan dişlədi

## 37 yaşlı qadın orqanlarını itirdi



**Bir siçanın dişləməsi nəticəsində 37 yaşlı qadın burnunu, dodaqlarını, ayaqlarını, qollarını itirib.**

Bu, inanılmaz, heyrətli, bir o qədər də qorxuncdur. Bu siçanlara "firon siçanları" deyilir. Onlar ilanlar, hətta aslanlarla mücadilə aparmaqları ilə məşhurdur. "Milliyet.com"da yer alan xəbərdə bildirilir ki, hadisə Cənubi Afrikada baş verib. Cənubi Afrikanın KvaZulu-Natal şəhərində yaşayan 37 yaşlı Şaninleya Visser 4 il öncə keçmiş müdirinin evindəykən bir siçan əlinin baş barmağı ilə işarət barmağı arasındakı bölgədən dişləyib. Qadın bunun sadəcə kiçik bir cızıq olduğunu zənn edib. Siçanın dişləməsinin həyatını cəhənnəmə döndərəcəyini, əlbəttə ki, ağlına belə gətirməyib. Lakin hadisədən iki gün sonra gözlənilmədən yerə yıxılıb və xəstəxanaya aparılıb. Müayinələr zamanı məlum olub ki, qadında qanın zəhərlənməsi prosesi gedir və həyat əhəmiyyətli orqanlar sürətli bir şəkildə iflas etməkdədir. Proses qadında septik şoka səbəb olub. Qadın bu haqda danışır ki, əlləri od tutub yanırdı: "Dözülməz ağrı içindəydim. Qadının üzərində 70-ə yaxın cərrahi əməliyyat aparılıb. Günlərlə komada qalan qadın qızına, ailəsinə həyatda qalma şansının çox zəif olduğunu söyləyib. Onun həyatını qurtarmağa çalışan həkimlər 11 gün ərzində qadını "süni koma" vəziyyətində saxlayıblar. Həkimlər qadının burnunu, dodaqlarını, hər iki ayağını diz qapağından aşağı və hər iki qolunu da dirsəkdən aşağı amputasiya etmək məcburiyyətində qalıblar. Sonrasa qadın çənə və dodaqlarını yenidən inşa etmək üçün plastik-cərrahiyyə əməliyyatı keçirib. 70-ə yaxın əməliyyatdan sonra qadın yeni üzünün görüntülərini instaqram hesabında paylaşıb. Qadın indi teleaparıcılığa başlayıb. Öz həyat hekayəsini danışmaqla yanaşı narkotik asılılıqlı gənclərin həyatından da reportaj hazırlayır.

**Məlahət**

# Fotosessiyasını izləyiciləri ilə bölüşüb

## Aktrisanın şəkillərində ən çox bahalı geyimi müzakirələrə səbəb olub



**2014-cü ildə musiqiçi Ali Erellə evlənən və 2019-cu ildə qızı Leyla dünyaya gələn aktrisa Seda Bakan aktiv İnstaqram istifadəçisidir. O, daimi olaraq ya sənəti, ya da işi ilə bağlı müxtəlif paylaşımlar edir.**

Axşam.az xəbər verir ki, aktrisa bu dəfə şəxsi səhifəsində yeni fotosessiyasını izləyiciləri ilə bölüşüb.

Aktrisanın şəkillərində ən çox bahalı geyimi müzakirələrə səbəb olub. Belə ki, Sedanın əynindəki tulumunun qiyməti 15 min 700 lirə (3220 manat), belindəki kəmərin qiyməti isə 4050 lirə (830 manat) olub. Aktrisanın fotolarını Mehmet Arslan lentə alıb.